

"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

## Şəhid ailələrinə daha bir güzəşt hüququ: yenilik nədən ibarətdir?



16


# SƏS

№ 139 (6822)

8 avqust 2023-cü il.
Qiymәti 60 qәpik


# Hər səfər bir dirçəliş, bir inkişafdır!



2

**Prezident İlham Əliyev Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfər edib**

# Separatçılıqdan ekoloji terrora



5

## YAP-ın nümayəndələri ICAPP-ın tədbirlərində iştirak ediblər




7

## Kirill Poluxin: "Bakı Şərq və Qərb arxitekturasının harmoniyasıdır"



13

## İsti havalarla bağlı XƏBƏRDARLIQ



16



## 3 min manata "Makarov" tapançası satmaq istəyən şəxs yaxalandı

16

## Tüstülənən sağlamlıq



13

# Hər səfər bir dirçəliş, bir inkişafdır!

## Prezident İlham Əliyev Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfər edib

***Prezident İlham Əliyev avqustun 7-də Qazax rayonuna səfər edib. Dövlətimizin başçısı Ümummilli Lider Heydər Əliyevin Qazax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.***

Prezident İlham Əliyev daha sonra Qazax rayonunda yenidən qurulan Qarapapaq-Çaylı avtomobil yolunun açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, bu avtomobil yolu uzun müddət təmir olunmadan istifadə edildiyindən, həmçinin təbii faktorların təsirindən yararsız vəziyyətdə idi. Vətəndaşların rahat gediş-gəlişini təmin etmək məqsədilə avtomobil yolu əsaslı şəkildə yenidən qurulub. Yol boyunca suların ötürülməsini təmin etmək məqsədilə mövcud dəmir-beton boruların bərpası, zəruri olan yerlərdə isə yeni suötürücü boruların tikintisi işləri yerinə yetirilib.

Prezident İlham Əliyev avqustun 7-də Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Qazax" Əlahiddə Sərhəd Diviziyasının qarnizon kompleksində yaradılan şəraitlə tanış olub. Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi. Dövlətimizin başçısına kompleksdə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, 20,5 hektar ərazini əhatə edən hərbi hissə kompleksinə qərargah binası, 5 binadan ibarət 146 mənzilli yaşayış kompleksi, yeməkxana, hamam, camaşırxana və tibb məntəqəsindən ibarət əsgər yataqxanası, şəxsi heyətin xidmətinin yüksək səviyyədə aparılması üçün lazımi şəraitlə təmin edilmiş iş otaqları daxildir. Bununla yanaşı, kompleksin ərazisində helikopter meydançası, hərbi texnikaların saxlanması üçün avtomobil parkı, avtomobil yuma və yanacaqdoldurma məntəqələri, silah, ərzaq və əşya-geyim anbarları, içməli su anbarı, qazanxana binası mövcuddur. İstilik sistemi, daimi su və elektrik enerjisi ilə təmin edilən kompleksdə ehtiyat generatorlar quraşdırılıb. Ərazidə əsaslı tikinti-abadlıq işləri aparılıb, 23 min kvadratmetr sahə asfaltlanıb, geniş yaşıllıq salınıb, ağaclar əkilib.








Xidmətin yüksək səviyyədə aparılması, şəxsi heyətin döyüş qabiliyyətinin təkmilləşdirilməsi, peşəkar vərdişlərinin daha da inkişaf etdirilməsi üçün hərtərəfli şərait yaradılıb. Dövlətimizin başçısına, həmçinin "Qazax" Əlahiddə Sərhəd Diviziyasının xidməti istifadəsinə verilmiş silah arsenalı, döyüş texnikaları, yüksəkkeçidli nəqliyyat vasitələri, zirehli və avtomobil texnikası, tibb avtomobilləri nümayiş etdirildi.

Prezident İlham Əliyev avqustun 7-də Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzində yaradılan şəraitlə tanış olub. ADA Universitetinin rektoru Hafiz Paşayev dövlətimizin başçısına Qazax Müəllimlər Seminariyasının tarixi və Mərkəzdə yaradılan şərait barədə məlumat verdi.

Qeyd edilib ki, Qazax Müəllimlər Seminariyasının tarixi 1876-cı ildə Qoridə yaradılmış Zaqafqaziya Müəllimlər Seminariyası ilə bağlıdır. Ümumilikdə 250 azərbaycanlı, o cümlədən Cəlil Məmmədquluzadə, Firidun bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Nəriman Nərimanov, Süleyman Sani Axundov, Üzeyir bəy Hacıbəyli Qori Seminariyasını bitirib. 1918-ci ildə çar rejiminin dağılmasından sonra Zaqafqaziya Müəllimlər Seminariyası parçalanıb və onun Azərbaycan bölməsinin bazasında Qazax Müəllimlər Seminariyası yaradılıb. Azərbaycan bölməsinin Qoridən Azərbaycana köçürülməsini Firidun bəy Köçərli həyata keçirib. Qazax Müəllimlər Seminariyasının təntənəli açılışı qazaxlı Məşədi İbrahimin seminariyaya hədiyyə etdiyi evdə 1918-ci il noyabrın 10-da baş tutub.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev 1999-cu ildə Qazax Müəllimlər Seminariyasının 80 illik yubileyinin keçirilməsi haqqında göstəriş verib və bu məqsədlə təşkil olunmuş ümumrespublika elmi-praktiki konfransının iştirakçılarına təbrik məktubu ünvanlayıb. Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci il noyabrın 3-də Qazax Müəllimlər Seminariyasının 100, 2013-cü il fevralın 14-də isə Firidun bəy Köçərlinin 150 illik yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalayıb.

ADA Universiteti Seminariyanın tarixi binasının və onun maarifçi missiyasının bərpası təşəbbüsü ilə çıxış edib. 2021-ci ilin oktyabrında başlanılan bərpa işlərinə Heydər Əliyev Fondu, Azərbaycan Sahibkarlar Konfederasiyası, Amerika Azərbaycan Cəmiyyəti cəlb olunub. Seminariya binasının tarixi əhəmiyyətli obyekt olduğu nəzərə alınaraq, bərpa işləri xüsusi yanaşma ilə aparılıb. Cari il yanvarın 26-da Qazax Müəllimlər Seminariyası ADA Universiteti Qazax Mərkəzində Firidun bəy Köçərlinin 160 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

***Ardı Səh. 3***

# Hər səfər bir dirçəliş, bir inkişafdır!

## Prezident İlham Əliyev Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfər edib

Əvvəli Səh. 2

Qeyd olundu ki, Qazax Müəllimlər Seminariyasının tarixi binasında 2022-ci ilin oktyabrından ADA Universiteti Qazax Mərkəzi fəaliyyət göstərir. 2022-2023-cü tədris ilindən Mərkəzdə təhsillə bağlı iki magistr proqramı həyata keçirilir. Təhsil üzrə menecment, təlim və tədrisin təşkili metodikası üzrə proqramlarda 33 tələbə magistr dərəcəsi almaq üçün tədrisə cəlb olunub və birinci kursu bitirib. 2023-2024-cü tədris ilindən Qazax Mərkəzində bu ixtisaslarla yanaşı, dövlət idarəetməsi magistr proqramı tədris olunacaq. Yeni dərs ilindən bu üç ixtisasa 94 tələbə qəbul edilib. Beləliklə, Mərkəzdə ümumilikdə 127 tələbə təhsil alacaq.

Qeyd olundu ki, ADA Universiteti tərəfindən 2022-ci ildən etibarən müəllimlər üçün "Bir müəllimin manifesti" birillik üçmərhələli ixtisasartırma proqramı həyata keçirilir. Proqram çərçivəsində bölgələrdən müsahibə yolu ilə seçilmiş müəllim və direktorlar birinci mərhələdə Qazax Mərkəzində, ikinci mərhələdə ADA Universitetində, üçüncü mərhələdə isə ADA Vaşinqton Mərkəzində tədrisə cəlb olunurlar. Bu proqram vasitəsilə ötən il 38, bu il isə 20 müəllim və məktəb direktoru ixtisasartırmaya cəlb edilib. Proqramın ilk 38 iştirakçısı arasından 4 nəfər seçilərək ADA Universitetinin Qazax Mərkəzində əməkdaş olaraq fəaliyyətə başlayıb. Bu proqramın əsas məqsədi seçilmiş təhsil işçilərini gücləndirilmiş ingilis dili dərslərinə cəlb etmək, inkişaf etmiş ölkələrin təhsil sistemi ilə yaxından tanış olmaq məqsədilə Amerika məktəbləri ilə əyani təcrübə əlaqəsi yaratmaqdır.

Məlumat verildi ki, Mərkəzin nəzdində elmi-tədqiqat şöbəsinin fəaliyyəti və müxtəlif tipli təhsil və mədəniyyət yönlü beynəlxalq tədbirlərin təşkili planlaşdırılır. Bu fəaliyyət çərçivəsində 1918-1920-ci illərdə nəşr olunmuş "Azərbaycan" qəzetinin ərəb əlifbasından latın qrafikasına transliterasiyası həyata keçirilir.













Prezident İlham Əliyev dünən Qazax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində iştirak edib Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Qazaxda "Venzana" mebel fabrikinin açılışında iştirak edib. Prezident İlham Əliyev avqustun 7-də "Bakı-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolunun Gəncə-Qazax-Gürcüstan ilə dövlət sərhədi (130,15 km) hissəsinin 4 zolağa genişləndirilməsi layihəsi" çərçivəsində yenidən qurulan, ümumi uzunluğu 102 kilometr olan Gəncə-Qazaxbəyli hissəsinin açılışında iştirak edib.

Bildirildi ki, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən yenidən qurulan 1b texniki dərəcəli yol dörd hərəkət zolağından ibarətdir. Yolun bu hissəsində 67 alt keçid, 17 qovşaq və 20 körpünün tikintisi başa çatdırılıb. Dövlətimizin başçısı görülən işlərlə bağlı videoçarxa baxdı.

Prezident İlham Əliyev daha sonra Şəmkir rayonuna səfər edib. Həmin gün Prezident İlham Əliyev Şəmkir şəhəri Məhəmməd Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-liseyin yeni binasının açılışında iştirak edib.

Prezident İlham Əliyev avqustun 7-də Samux rayonuna səfər edib. Prezident İlham Əliyev avqustun 7-də Samux Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında iştirak edib. Dövlətimizin başçısına xəstəxanada yaradılan şərait barədə məlumat verildi.

Qeyd olundu ki, Samux Rayon Mərkəzi Xəstəxanasının tikintisinə 2019-cu ildə başlanılıb. İnşaat işləri bu ilin avqustunda başa çatdırılıb. İki hektar sahədə inşa olunan xəstəxana 90 çarpayılıqdır. Tibb müəssisəsinin üçmərtəbəli binasında əhaliyə ən müasir tələblər səviyyəsində səhiyyə xidməti göstərilməsi üçün lazımi şərait yaradılıb. Belə ki, xəstəxana Yaponiya, Koreya Respublikası, İtaliya və Türkiyə istehsalı olan ən müasir avadanlıqla təchiz edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Samuxda Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi çərçivəsində inşa olunan Sərkar kənd uşaq musiqi məktəbinin yeni binasının açılışında iştirak edib.

Prezident İlham Əliyev dünən həmçinin Bərdə rayonuna da səfər edib. Dövlətimizin başçısı Bərdədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Qarabağ Regional DOST Mərkəzinin və Qarabağ Regional Peşə Hazırlığı Mərkəzinin açılışında iştirak edib. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bildirilib burada 123 işçi çalışacaq, "Könüllü DOST" proqramı üzrə 50 könüllü fəaliyyət göstərəcək. Mərkəzdə gün ərzində orta hesabla 650-700 vətəndaşın qəbulu nəzərdə tutulur. Qarabağ Regional Dost Mərkəzinin əhatə dairəsinə 9 inzibati rayon daxildir. Burada ümumilikdə 770 mindən çox əhaliyə xidmət göstəriləcək. Onlardan 170 mini bilavasitə sosial müdafiəyə cəlb olunan şəxslərdir.

Beləliklə dövlətimizin başçısının bu səfəri də bir daha aydın nümayiş etdirdi ki, bölgələrə hər səfər yeni dirçəlişə və inkişafa ən böyük dəstəkdir.

# Qüdrətli Azərbaycan dövlətinin təməlinin qoyulduğu gün - 4 avqust 2003-cü il

***Bəli, bu gün Ulu Öndərin özü qədər inandığı möhtərəm Prezidentimiz İlham Əliyevin respublikamızın Baş naziri vəzifəsinə təyin olunmasından 20 il ötür. 2003-cü ildə İlham Əliyevin Baş nazir təyin olunmasına razılıq verən Milli Məclis əslində Ümummilli Lider, Ulu Öndər Heydər Əliyevin siyasi və iqtisadi kursuna, dövlət quruculuğu konsepsiyasına yeni nəfəs verəcək strateji qələbələri hədəf seçmişdi. Və bu gün Prezident İlham Əliyevin Baş nazir təyin olunmasından 20 il keçdi...***



## TARİXİ MÜRACİƏTİN TƏNTƏNƏSİ

Ulu Öndər Heydər Əliyevin Özü qədər inandığı İlham Əliyevin 2003-cü ildə Baş nazir təyin olunması ilə bağlı Milli Məclisə müraciəti millət vəkilləri tərəfindən böyük razılıqla, rəğbətlə qarşılandı. Azərbaycanın işıqlı sabahına, daha güclü gələcəyinə olan inamın ifadəsi olan bu tarixi müraciət ali qanunvericilik orqanında müzakirələrdən sonra təsdiqini tapdı. İlham Əliyevin Baş nazir təyin olunmasına razılıq verən Milli Məclis əslində Ümummilli Lider Heydər Əliyevin siyasi və iqtisadi kursuna, dövlət quruculuğu konsepsiyasına yeni nəfəs verəcək strateji qələbələri hədəf seçmişdi. Çünki bu təyinata qədər Heydər Əliyev məktəbinin yetirməsi Prezident İlham Əliyev Avropa Şurasında Azərbaycanın nümayəndə heyətinin rəhbəri, AŞPA-nını sədr müavini, Büro üzvü, ARDNŞ-nin birinici vitse-prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti kimi mühüm postlar da əlahiddə harizması ilə böyük nailiyyətlər əldə etmişdi. 2003-cü il avqustun 4-də Baş nazir təyin olunması ilə cənab İlham Əliyevin qlobal fəaliyyəti mahiyyətcə yeni keyfiyyət mərhələsinə keçdi və bu, ilk növbədə xalqın iradəsi ilə müəyyənləşdi. Bu təyinata qədər Heydər Əliyev məktəbinin yetirməsi Prezident İlham Əliyev Avropa Şurasında Azərbaycanın nümayəndə heyətinin rəhbəri, AŞPA-nın sədr müavini, büro üzvü, ARDNŞ-nin I vitse-prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti kimi mühüm postlarda əlahiddə xarizması ilə böyük nailiyyətlər əldə etmişdi. 2003-cü ilin avqustun 4-də Baş nazir təyin olunması ilə İlham Əliyevin qlobal fəaliyyəti mahiyyətcə yeni keyfiyyət mərhələsinə keçdi və bu, ilk növbədə, xalqın iradəsi ilə müəyyənləşdi. Çünki İlham Əliyevin Baş nazir təyin edilməsi xalqın iradəsinin ifadəsi idi. Bu təyinat xalqın Heydər Əliyev siyasi kursuna olan inamından və sədaqətindən doğurdu. Bu təyinatı ölkədəki ictimai-siyasi sabitliyin qorunması və davamlı olmasına xidmət edirdi. Müstəqilliyimizin dönməzliyinin təmin edilməsində İlham Əliyev şəxsiyyətinə olan xalqın inamı idi.

## CƏNAB İLHAM ƏLİYEV DÜNYADA QƏBUL EDİLƏN LİDERDİR

Azərbaycan xalqının iradəsi isə uzaq və yaxın xaricdə öz pozitiv nəticələrini çox gözlətmədi. ABŞ prezidenti, Türkiyənin Baş naziri, Rusiyanın prezidenti, İran hökuməti, Gürcüstan prezidenti və digər ölkələr İlham Əliyevin Baş nazir təyin olunmasını çox uğurlu seçim kimi qiymətləndirdilər və Onunla rasional əməkdaşlığa hazır olduqlarını bəyan etdilər

2003-cü ilin oktyabrında xalqın böyük əksəriyyətinin səsi ilə Prezident seçilən dövlət başçısı İlham Əliyev bir çox cəhətləri ilə çoxlu sayda yerli və xarici ekspertlərin diqqətini cəlb etdi. Onun Liderlik dövrünü olduqca əhatəli təhlil etdikdə, ekspertlər haqlı olaraq, Prezident İlham Əliyevi yeniliklərə həssaslıq göstərən, rasional keyfiyyətləri özündə cəmləşdirən müasir Lider kimi xarakterizə edirlər. Dövlət başçısında bu cür rasional, əlahiddə keyfiyyətlərin cəmləşməsi xarici siyasətdə və eləcə də, ölkədaxili demokratik proseslərin gedişində əsas leytmotiv təşkil edirdi ki, bu da beynəlxalq münasibətlər sistemində Azərbaycan üçün mühüm faktorlardan biri, bəlkə də, birincisi idi. Nəticədə Azərbaycan həm daxili siyasətdə, həm də beynəlxalq birliyə inteqrasiya olunmaqda əməli nəticələrə nail oldu.

Bir sözlə, Azərbaycan bu gün tarixinin ən qüdrətli dövrünü yaşayır. Dünya artıq Azərbaycanı regionun lideri, qlobal layihələr həyata keçirən, islahatlar aparan, əməkdaşlığa və Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş kimi qəbul edir. Son 20 ildə cənab İlham Əliyevin yürütdüyü müstəqil siyasətlə Azərbaycan xarici əlaqələrini, siyasi-iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Təbii sərvətlərinin sahibi kimi enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır. Digər tərəfdən, Azərbaycan bölgədə və beynəlxalq səviyyədə əməkdaşlığa, təhlükəsizliyə mühüm töhfələr verir. Məhz bütün bunlara görə dünya siyasətinin aparıcı qurumları, həmçinin mötəbər beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi xarici siyasətini regional təhlükəsizlik və qlobal inkişafa mühüm töhfə kimi qiymətləndirirlər və ölkəmizlə əməkdaşlığa böyük önəm verirlər.

Xüsusilə də, son vaxtlar ölkə Prezidenti İlham Əliyevin Avropa liderlərinin dəvəti ilə ən mötəbər tədbirlərə dəvət alması, yüksək tribunalardan çıxışı, ən yüksək səviyyədə qarşılanması ölkəmizin artan nüfuzunun bariz nümunəsidir. İstər Davos İqtisadi Forumu istər Macarıstana olan səfər istərsə də Münhen Təhlükəsizlik Konfransında iştirak bir daha sübut etdi ki, Avropa ölkələri Azərbaycanla əməkdaşlığa yüksək önəm verir, Prezident İlham Əliyevi Avropa üçün ən önəmli LİDER hesab edirlər.

## DAHA NƏHƏNG İŞLƏRİN BAŞLANĞIC NÖQTƏSİ

İctimai-siyasi sabitlik davamlı xarakter aldı və bunun nəticəsi olaraq ölkədə qlobal layihələr gerçəkləşdi. Azərbaycan dünyada analoqu olmayan iqtisadi inkişafa nail olmaqla, regionda və dünyada aparıcı dövlətlərdən birinə çevrildi. Davamlı sosial-iqtisadi inkişaf regionların dinamik tərəqqisinə stimul verdi. Ölkədə demokratik proseslər dərinləşdi və bununla da, Azərbaycanın beynəlxalq birliyə inteqrasiyası keyfiyyətcə yeni mərhələyə yüksəldi...Regional və beynəlxalq əməkdaşlığı prioritet seçən Prezident İlham Əliyev qısa müddət ərzində mürəkkəb geosiyasi şəraitdə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kursu yaradıcılıqla gerçəkliyə çevirdi. Bakı-Tbilisi-Ceyhan neft, ardınca isə Bakı-Tbilisi-Ərzurum qaz əsas ixrac boru kəmərlərinin həyata vəsiqə alması bu istiqamətdə daha yeni işlərə yol açdı. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin gerçəkləşməsinə start verilməsi isə bu mənada, ən yaxşı nümunədir. İllərlə müzakirə olunan bu transmilli layihə Prezident İlham Əliyevin qətiyyəti sayəsində kağız üzərindəki layihə çərçivəsindən çıxaraq yeni reallıq müstəvisinə keçdi... Bu gün artıq Azərbaycanın iştirakı olmadan regionda hər hansı bir layihənin həyata keçirilməsi inandırıcı görünmür. Bu isə ölkənin iqtisadi qüdrəti və beynəlxalq aləmdəki nüfuzu ilə müəyyənləşir. Bütün bunlar isə Ümummilli Lider Heydər Əliyevin böyük uzaqgörənliklə, 2003-cü ilin avqustunda söylədiyi "Mən İlham Əliyevə özüm qədər inanıram" fikrindən güc alır.

## 44 GÜNLÜK QARABAĞ MÜHARİBƏSİNDƏ QAZANILAN ZƏFƏR İSƏ ONUN SİYASİ HƏYATININ ÖZÜ DEDİYİ KİMİ MƏNASI OLDU

Bəli, üç il öncə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "Dəmir Yumruq" siyasətinə əməl edən Güclü Azərbaycan Ordusunun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə cəmi 44 günə qazandığı möhtəşəm qələbə 30 illik həsrətə son qoyub şanlı tariximizdə yeni səhifə açdı. Azərbaycanın ən yeni tarixini yazan Baş Sərkərdəmiz bütün nailiyyətləri ilə yanaşı, həm də işğal altında olan torpaqlarımızın xilaskarı oldu, çox qısa zaman ərzində Azərbaycanın uğur tarixini yazdı. Bütün çıxışlarında "Qarabağ Azərbaycandır!" - deyən Prezident İlham Əliyev onu gerçəkliyə çevirdi. Uzun illər beynəlxalq təşkilatların, bəzi böyük dövlətlərin himayə etdiyi işğalçı Ermənistan Azərbaycan Prezidentinin hərbi-siyasi diplomatiyası qarşısında diz çökdü. Ali Baş Komandan uğurlu "Dəmir yumruq" əməliyyatı ilə bütün dünyaya bacarıqlı, qətiyyətli Sərkərdə olduğunu isbatladı. Bu əməliyyat ilk növbədə xalq-ordu-dövlət birliyinin bariz təcəssümü oldu. Dünyanın ən böyük siyasi təşkilatı olan BMT-nin Təhlükəsizlik Şurasının illər öncə qəbul etdiyi və 2020-ci ilə qədər kağız üzərində qalan qətnamələrinin icrasını Azərbaycan güc yolu ilə reallığa çevirdi. Bununla da Ali Baş Komandan İlham Əliyev bir daha dünyaya bəyan etdi ki, yaşadığımız müasir dövrdə hüququn əsasları deyil, güc amili ən mühüm silahdır. Bəli, məhz bunu anlamayan Ermənistan cəbhənin bütün istiqamətləri boyunca təxribatlara əl atmaqla tarixinin ən səhv gedişini etdi. O səhv ki, işğalçı ölkəyə hələ uzun illər sağalmayacaq sarsıdıcı, ölümcül zərbə vurdu.

Düşmənin təxribatlarına cavab olaraq Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusuna illərlə gözlənilən əmri verdi - İrəli! Azərbaycan Ordusu Müzəffər Komandanın "Dəmir yumruq" əməliyyatının icrasına başladı. Ölkədə prezident-xalq-ordu birliyi Azərbaycanı şanlı qələbəyə apardı. Sentyabrın 27-dən başlanan Zəfər yürüşü noyabrın 8-də Qarabağın ürəyi - Şuşada dayandı. Və Azərbaycana hədə-qorxu gələn, illərlə düzəltdikləri istehkamlara güvənən Ermənistan cəmi 44 günə diz çökdü. Azərbaycanın igid oğullarının döyüş əzmi qarşısında erməni əsgəri silahını, bayrağını atıb qaçmaq məcburiyyətində qaldı.

Bu dövrdə ordumuz cəbhədə hər gün uğur qazanırdısa, Prezident İlham Əliyev diplomatik məharəti ilə Azərbaycana təzyiq etmək istəyən qüvvələrə elə tutarlı cavablar verirdi ki, xalqın ürəyi dağa dönürdü. 44 gün ərzində dünyanın elə bir mötəbər KİV-i qalmadı ki, Azərbaycan Prezidentindən müsahibə götürməsin. Bütün müsahibələrində dövlət başçısı bəyan edirdi ki, Azərbaycan haqq yolundadır və kimlərsə, hansısa telefon zəngləri bizi durdura bilməz. Bu, tariximizə yazılan möhtəşəm bir dövr idi. Ordumuzun şəhər və rayonları ard-arda işğaldan azad etməsi, dövlət başçımızın xalqa müjdəli xəbərləri, qardaş Türkiyə və Pakistanın müharibə başlayan andan son günədək Azərbaycana birmənalı mənəvi dəstək verməri xalqımızı daha da ruhlandırdı və ürəkləri dağa döndərdi. Qardaş Türkiyə rəsmən bəyan etdi ki, haqq savaşı aparan Azərbaycanı durdurmaq istəyən istənilən qüvvə qarşısında Türkiyəni görəcək. Bu, həqiqətən də, əsl qardaş qayğısı idi. Məhz bu birlikdən güc alan Azərbaycan Silahlı Qüvvələri uğurlu missiyasını şərəflə tamamladı. Noyabrın 10-da Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağ münaqişəsinin başa çatması ilə bağlı birgə Bəyanat imzaladılar. Bəyanatın müddəalarına əsasən noyabrın 20-də Ağdam rayonunun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri Azərbaycana təhvil verildi. Noyabrın 25-də Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi. Dekabrın 1-də Laçın şəhəri və 126 yaşayış məntəqəsi bir güllə atılmadan Azərbaycana qaytarıldı. Sənədə əsasən hər iki ölkə üzərinə öhdəliklər götürdü.

Bir sözlə, bu gün daha da qürurluyuq. Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev 2003-cü ildə Ümummilli Liderin xalqa müraciətində ifadə etdiyi hər bir inamı doğrultdu, xalqımızı daha da yumruq kimi birləşdirdi və qələbəyə gedən yolumuzu addım-addım yaxınlaşdırdı. Ötən 20 ilin reallıqları fonunda isə Prezident İlham Əliyevin yürütdüyü siyasətin konturları aydındır və bu, Azərbaycanda həyatın bütün sahələrində yeni uğurlara nail olacağımızı əminliklə və qətiyyətlə söyləməyə əsas verir. Prezident İlham Əliyev Vətən uğrunda bu müqəddəs savaşla Azərbaycan tarixinin ən böyük və ən şərəfli Zəfər epopeyasını yazdı və Azərbaycana qalib ölkə statusunu qazandıran sərkərdə kimi tarixə silinməz möhürünü vurdu.

***RƏFİQƏ KAMALQIZI***

BAXIŞ BUCAĞI

# Separatçılıqdan ekoloji terrora



**Bu gün erməni yalanı, Ermənistanın manipulyasiyası həm ayaq tutur, həm də yeriyir. Dünyanın bəzi ölkə və təşkilatları erməni mənbələrinə istinad edərək yalan informasiyalar tirajlayır, məsuliyyətinə varmadan ölkəmizi ittiham etməyə cəhd edir. Halbuki bir az əziyyət çəkib araşdırma aparsalar problemin həlli yollarına da tez çatarlar. Azərbaycan tərəfi dünya ölkələrindən, beynəlxalq təşkilatlardan "məzlum erməni əhalisi" ifadəsi altında Ermənistanın Qarabağda apardığı separatçı əməllərə diqqət yetirilməsini istəyir. Uzun illərdir ki, məhz bu siyasətlə Ermənistanın Azərbaycanın 20 faiz torpaqlarını işğal etməsinə göz yumulması, işğalçı ilə işğala məruz qalan tərəf arasında fərqin qoyulmaması anlaşılan deyil və dünya münasibətlər sistemində bunun analoqu yoxdur. Amma dünya birliyi hələ də Ermənistanın təcavüzkar, separatçı siyasətinə laqeyddir. Məhz bu yanaşma erməni separatçılarına qol qanad verir, onların Qarabağda Azərbaycan qanunlarına, suveren huquqlarına qarşı çıxmalarına təhrik edir.**

44 günlük müharibə 2 il 9 ay, 21 gündür ki, başa çatıb. Azərbaycan 30 illik erməni işğalına son qoyub. Torpaqlarını yadellilərdən təmizləyib, BMT TŞ-nin 4 qətnaməsini təkbaşına həll edib, həm də ədaləti bərpa edib. Bəli, Azərbaycan erməni separatçılığının kökünü kəsmək, onu ləğv etmək üçün ən ağır yolu seçməli oldu. Azərbaycan xalqı, dövləti böyük itkiləri ona görə vermədi ki, separatçıların tör-töküntüləri hələ də suveren ərazilərimizdə qalsın, silahlı birləşmələr yaratsın, qanunlarımızı tanımasın. Dünyanın bizə ağıl dərsi keçməyə çalışan elə bir ölkəsi yoxdur ki, öz ərazilərində bənzər hadisələrin yaşanmasına razı olsun, yaxud öz ərazilərində erməni dövlətinin yaranmasına göz yumsun. Fransanı Ermənistanın ən yaxın "bacısı" hesab edirlər. Yəni fransızların dövləti elə siyasət yürüdür ki, sanki öz ərazilərində ermənilərə heç olmasa muxtariyyət səviyyəsində bir status verib və Azərbaycandan da bunu tələb edir. Bu günə qədər nə Fransa, nə ABŞ, nə Rusiya, nə də cənub qonşumuz İran ermənilərə sevgisini bu sayaq ifadə etməyə cəsarət etməyiblər. Deməli, bu, bir oyundur, həm də pis bir oyun



Ermənistan 44 günlük müharibəyə qədər də, bu gün də özünü regionda terrorçu dövlət kimi aparır. Bu dəfə İrəvanın həyata keçirdiyi və özünün də ən böyük silahı hesab etdiyi ekoloji terrordan da söhbət açacağıq. Bu ölkə qonşularına hansı fəlakətlər yaşatmayıb? İlk olaraq Metsamor Atom Elektrik Stansiyasının törətdiyi fəlakəti yada salaq. Bu AES ötən əsrin 70-ci illərində Rusiya tərəfindən inşa edilib və demək olar ki, ömrünü başa vurub. Buna baxmayaraq ermənilər son anına qədər bu qurğunu tam gücü ilə işlətmək niyyətindədirlər. Hətta elektrik enerjisini qonşu ölkələrə də satır. Bu qədər təzyiq altında işləyən stansiyada bir gün qəzanın baş verəcəyini də gözləmək olar. Çernobıl AES-dən heç də geri qalmayan Metsamor stansiyası partlayarsa qonşu Gürcüstan, Türkiyə, Rusiya, Azərbaycan, İran, Qara, Aralıq, Xəzər dənizi hövzələrindəki ölkələr fəlakət zonasına düşər. Məsələ burasındadır ki, Ermənistan AES-dəki problemləri aradan qaldıracaq gücdə də deyil.

Növbəti ekoloji terror Ermənistanın yeraltı mədənlərdən çıxarılan filizlərin istehsalında yol verdiyi texnoloji qüsurlar zamanı yaşanır. Misal üçün, Kacaran mis-molibden kombinatından Oxçuçaya axıdılan zərərli tullantılan səbəbindən Azərbaycan ərazilərinə qədər uzanan çayda canlı orqanizm demək olar ki, qalmayıb, məhv olub. Azərbaycan tərəfi məsələni beynəlxalq təşkilatlara qədər dəfələrlə çatdırsa da ekoterror bu gün də davam edir.

Ermənistanın yaratdığı bu qədər ekoloji fəlakət azmış kimi Arazdəyəndə inşa edilən metallurgiya zavodu da qonşu ölkələrə bir az daha çox ekoloji problemlər yaşadacaq. Bununla bağlı Azərbaycan müxtəlif kürsülərdən Ermənistanın bu qanunsuz əməllərinin dayandırılması barədə çağırışlar edilsə də proses hələ də davam edir. Ölkəmizin etirazı səbəbsiz yerə qəbul edilmir. Nəticə də acınacaqlıdır. Arazdəyən metallurgiya zavodunun tullantılarının da Araz çayına axıdılacağı istisna edilmir. Çünki, zavodun inşa ediləcəyi yerin seçilməsində bu faktor rol oynayıb.

Azərbaycan ictimaiyyəti, ekofəallar, qeyri-hökumən təşkilatlarının nümayəndələri Ermənistanın Cənubi Qafqazda ekoloji terrorla məşğul olması barədə öz etiraz səslərini ucaltmaqdadırlar. Onlardan biri ilə size tanış etmək istərdik:

Biz, aşağıda imza edən Azərbaycanın qeyri-hökumət təşkilatları Ermənistanın dağ-mədən sənayesində ekoloji norma və standartları kobul şəkildə pozmaqla getdikcə gücləndirilən iqtisadi fəaliyyətin 15 milyondan çox əhalinin yaşadığı Cənubi Qafqaz regionunu bütövlükdə fəlakətə sürükləməsindən dərin narahatlığımızı ifadə edir və bununla mübarizədə səyləri birləşdirmək üçün "Environmental Protection First" (EPF) adlı koalisiya yaratdığımızı elan edirik.

Mütəxəssislər tərəfindən aparılan yoxlamalar Ermənistanın dağ-mədən müəssisələrinin zəhərli kimyəvi tullantılarının Azərbaycanla sərhəddə də su resurslarına, ətraf mühitə böyük ziyan vurduğunu aşkarlayıb. Bütün bunlar əhalinin qayıdışına və təhlükəsiz yaşayışına mane olmaqla, azad edilmiş ərazilərdəki mina, dağıntılar problemləri qədər narahatedicidir.

Ciddi narahatlıqlar və suallarla bağlı bu yaxınlarda Azərbaycanın vətəndaş cəmiyyətinin şəxsən Ermənistanın Baş nazirinə ünvanladığı Açıq Məktubda qaldırılan məsələlərə Nikol Paşinyan tərəfindən cavab verilməməsi, beynəlxalq ekspertlərə Ermənistana gəlib yerində vəziyyəti qiymətləndirməyə şərait yaradılmaması, xarici ölkə QHT-lərinin oxşar məzmunlu müraciətlərinin nəzərə alınmaması bu koalisiyanın qurulmasını şərtləndirir. Ermənistanın dağ-mədən sənayesindəki proseslərin bütün qanuni vasitələrlə davamlı izlənilməsi və pozuntular əleyhinə mübarizənin gücləndirilməsi koalisiyanın əsas işi olacaq.

Bu işdə Ermənistanın bir sıra vətəndaş cəmiyyəti təşkilatlarının da köməkliyinə ümid edirik. Çünki bu məsələlər Ermənistan əhalisi üçün də ciddi təhlükə, sağlamlıq riskləri yaradır. Təəssüf edirik ki, bunu yaxşı dərk edən Ermənistanın bir sıra vətəndaş cəmiyyəti təşkilatlarının etirazlarına yerli hakimiyyət tərəfindən məhəl qoyulmur, onlar sıxışdırılır. Biz həm də boğulan erməni vətəndaş cəmiyyətinin səsi olacağıq, bütün Cənubi Qafqaz əhalisinin səsi olacağıq. Bu işdə Gürcüstanın vətəndaş cəmiyyətinin də güclü dəstəyinə ümid edirik.

Koalisiya Ermənistanın dağ-mədən sənayesində fəaliyyət göstərən yerli və xarici şirkətlərə üz tutaraq ƏMTQ sənədlərinin tam mətnini ən qısa müddətdə öz rəsmi internet saylarına yerləşdirməyə və ya ictimaiyyətə elan etməyə çağırıb. Onlar həmin sənədlərlə tanış olmaq istəyirlər.

Qərbi Azərbaycan İcması isə ekoloji terrordan heç də geri qalmayan daha bir məsələ ilə bağlı Ermənistanın baş nazirinə növbəti çağırışını edib. İcma üzvləri Ermənistandan qovulmuş azərbaycanlıları təmsil edən və onların geri qayıtmaq hüququnu müdafiə edən bir təşkilat olaraq Ermənistanın baş naziri Nikol Paşinyanın növbəti dəfə səsləndirdiyi saxta iddiaları qətiyyətlə pisləyib: "Belə ki, baş nazir Paşinyanın 25 iyul 2023-cü il tarixli mətbuat konfransının bir neçə gün əvvəl dərc olunmuş video yazısından məlum olduğu kimi, o, azərbaycanlıların Ermənistanı "könüllü tərk etməsi" və onlara "təzminat ödənilməsi" ilə bağlı əsassız və bir-biri ilə ziddiyyət təşkil edən iddialar ilə çıxış edib. Əvvəla, qeyd edilməlidir ki, təzminat qanunsuz aktın törədilməsinin və itkilərin baş vermiş olmasının etirafı mənasına gəlir ki, bu da könüllü tərk etmə iddiası ilə ziddiyyət təşkil edir. Əgər insanların kütləvi şəkildə köç etməsi həqiqətən könüllü olubsa, onda onlara niyə təzminat təklif edilib? İkincisi, biz Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququndan imtina etmələri müqabilində hər hansı formada təzminat aldıqları barədə iddianı qəti şəkildə təkzib edirik.

Ardı Səh. 6

# Separatçılıqdan ekoloji terrora










Əvvəli Səh.5

Zorla qovulma nəticəsində böyük əziyyət çəkmiş icma olaraq biz Ermənistandakı dədə-baba torpaqlarımıza qayıtmaq hüququmuzun təmin edilməsi tələbimizdə qətiyyətlə dayanırıq.

Ermənistanın baş nazirinin iddiaları onun həqiqəti təhrif etmək və icmamıza qarşı törədilmiş haqsızlıqlara görə məsuliyyətdən yayınmaq üçün növbəti cəhdidir. Ermənistan hökumətinin əsassız iddiaları qovulmuş azərbaycanlıların iztirablarını daha da artırır, sülh və barışığa gedən yolu çətinləşdirir. Ermənistan hökumətinin qovulmuş azərbaycanlıların öz yurdlarına qayıtmaq kimi hamılıqla qəbul olunmuş hüququnun həyata keçirilməsinə imkan verməkdən imtina etməsi bu dövlətin guya demokratik dəyərlərə bağlı olması və insan hüquqlarına hörmət etməsi ilə bağlı iddialarında nə dərəcədə qeyri-səmimi olduğunu ortaya qoyur.

Ermənistanın hüquqlarımızı təmin etməkdən imtina etməsi onun azərbaycanlılara qarşı nifrət əsasında etnik ayrı-seçkilik etməsini və ”milli azlıq yoxdursa, problem yoxdur” siyasəti yürütməsini birmənalı şəkildə sübut edir.

Biz Ermənistanı 2020-ci ildə münaqişə başa çatdıqdan sonra ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə təhlükəsiz şəkildə qayıtmasına imkan vermiş Azərbaycan tərəfindən nümunə götürməyə çağırırıq. Ermənistan insan hüquqlarına və beynəlxalq hüquqa eyni səviyyədə hörmət nümayiş etdirməli və Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıtmaq hüququnu təmin etməlidir.

Biz Ermənistan hökumətindən yalan iddialar yaymağı dayandırmağı və Ermənistandan qovulmuş azərbaycanlıların legitim narahatlıqları ilə bağlı İcmamız ilə substantiv dialoqa başlamağı tələb edirik”.

Bəli, Ermənistan adlanan terrorçu dövlət öz bəd əməllərini bütün istiqamətlərdə ”inkişaf” etdirir. Eyni zamanda məğlub ölkə kimi Azərbaycanın bütün beynəlxalq norma və prinsiplərə söykənən sülh təkliflərini qəbul etmək, müqavilə imzalamaq əvəzinə Qarabağda və onun ətrafında baş verən hadisələrdən öz çıxarları üçün istifadə etməyə çalışır. Erməni siyasi texnoloq Viqen Akopyan yerli mətbuata danışarkən bildirib ki, ”Rusiya 2025-ci ildən sonra Qarabağda qalmaq üçün hər şeyi edir. Onun sözlərinə görə, Rusiya hətta beş illik müddət başa çatdıqdan sonra belə öz sülhməramlılarını Qarabağdan çıxarmaq niyyətində deyil. Ermənistanın baş naziri Nikol Paşinyanın 25 iyuldakı mətbuat konfransında sülhməramlıların hansı şərtlər daxilində Qarabağı tərk edə biləcəyi barədə çıxışına münasibət bildirən V.Akopyan bu diskussiyaları süni adlandırıb. V.Akopyan həmçinin Paşinyanın açıqlamalarından sonra cəmiyyətdə yaranmış fikir ayrılıqlarına da münasibət bildirib. Belə ki, Nikol Paşinyanın açıqlamasından sonra bir çoxları sülhməramlıların Qarabağdan çıxacağı halda Rusiyaya qarşı addımlar atılmasını tələb ediblər. Onlar Rusiyanın Gümrüdəki bazasının və kapitalının ölkədən çıxarıla biləcəyini söyləyiblər. Ermənilər düşünür ki, bunun nəticələri həm Qarabağ, həm də Ermənistan üçün ağır olacaq. Onlar Rusiyanın Ermənistanda iştirakının azalacağı halda nələrin baş verəcəyini proqnozlaşdırmaq belə istəmirlər. Qeyd edək ki, söhbət təkcə hərbi-siyasi sferadan getmir, Ermənistanın həyati-vacib resursları - qaz və enerji daşıyıcıları da Rusiya ilə bağlıdır.

Ermənistanda ictimai-siyasi vəziyyət də digər sahələrdəki kimi acınacaqlıdır. Hakimiyyətə qarşı nifrət getdikcə artır. Reallıqla barışmaq məcburiyyətində qalan indiki hakimiyyətin çəmbəri daralmaqdadır. Paşinyanın ”TIR şousu” da effek vermədikcə hakim komandada da parçalanma qaçılmaz kimi görünür. Müxalifət, xüsusən də hakimiyyətdə keçmişdə təmsil olunanlar indikilərə qarşı daha sərt mövqe nümayiş etdirirlər. Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan Paşinyana xitabən ”Sən Qarabağı təslim etmisən, indi də Ermənistanı satmağa hazırlaşırsan? Bəlkə, nəhayət, gedəsən?”, deyib.

”Nikol Paşinyan dünən ümumermənі oyunlarının açılışında dedi ki, biz tarixi dövrə qədəm qoyuruq. Bu dövrdə dövlətə qarşı iradəmiz sarsılmaz olmalıdır. Bu o deməkdir ki, ”Qarabağla hər şey sona çatıb, baxın görək, Ermənistanı xilas edə bilirik? Sən növbəti məğlubiyyətlər üçün öz günahsızlığına zəmin hazırlamaq istəyirsən?”, - deyə keçmiş baş nazir bildirib.

Qeyd edək ki, Qarabağda ”humanitar fəlakət” oyunları da finala yaxınlaşmaq üzrədir. Artıq dünya birliyi ermənilərin iç üzünü gördü, onların Qarabağda yaşayan ermənilərin taleyindən çox ”Laçın dəhlizi” üçün ”mübarizə apardıqları ortadadır. Deməli, erməni xuntasını və Ermənistandakı maşa sahiblərini Qarabağ ermənilərinin ac qalması qətiyyən maraqlandırmır. ”Beynəlxalq Qırmızı Xaç Komitəsinin Xankəndiyə Ağdam vasitəsilə daxil olması təkcə bir halda mümkündür. Bu da Vaqif Xaçaturyanın qayıtmasından sonra razı ola bilərik. Bütün digər hallarda bu, inteqrasiyaya məcbur etmək üçün növbəti addım olacaq”, - deyə Tiqran Petrosyan bildirib.

Başqa sözə ehtiyac varmı?

**V.VƏLİYEV**

# YAP-ın nümayəndələri ICAPP-ın tədbirlərində iştirak ediblər






Xəbər verildiyi kimi, Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri 2023-cü il 4-7 avqust tarixlərində Monqolustanın paytaxtı Ulan-Batorda hakim Monqolustan Xalq Partiyasının ev sahibliyi ilə keçirilən Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Gənclər Qolunun VI və Qadınlar Qolunun VII iclaslarında iştirak ediblər. SİA xəbər verir ki, 14 ölkədən 18 siyasi partiyanın 100-ə yaxın nümayəndəsinin qatıldığı tədbirdə ICAPP-ın baş katibi Çunq Eu-yonq, Monqolustan Xalq Partiyasının baş katibi Amarbayasqalan Daşzeqve, Monqolustanın Rəqəmsal İnkişaf və Kommunikasiyalar naziri, Monqolustan Xalq Partiyasının Sosial Demokratik Gənclər təşkilatının prezidenti Uçral Nyam-Osor və Monqolustanın Mədəniyyət naziri, Monqolustan Xalq Partiyasının Sosial Demokratik Qadınlar təşkilatının vitse-prezidenti xanım Nomin Çinbat çıxış ediblər.

"Pandemiyadan sonrakı sosial-iqtisadi tərəqqi naminə gənclərin sosial və siyasi dialoqda iştirakı" mövzusunda keçirilən ICAPP-ın Gənclər Qolunun VI iclasında çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov postpandemiya dövründə gənclərin bilik və bacarıqlarının artırılmasının, sahibkarlıq və innovasiyalar sahəsində təşəbbüslərinin dəstəklənməsinin vacibliyini vurğulayıb, Azərbaycanda həyata keçirilən gənclər siyasətindən və Yeni Azərbaycan Partiyasının bu istiqamətdə fəaliyyətindən bəhs edib. "Pandemiyadan sonra gender əsaslı bərpaya nail olmaq üçün qadın liderliyinin təşviqi" mövzusunda keçirilən ICAPP-ın Qadınlar Qolunun VII iclasında çıxış edən YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli qadınların fəallığının artırılmasının ümumi sosial-iqtisadi rifaha və cəmiyyətin özəyi olan ailə institutunun möhkəmləndirilməsinə müsbət təsirindən, Azərbaycanda həyata keçirilən gender siyasətindən və Yeni Azərbaycan Partiyasının bu sahədə gördüyü işlərdən danışıb. İclaslarda, həmçinin təşkilati məsələlərə də baxılaraq Gənclər Qolunun və Qadınlar Qolunun yeni Büro üzvləri seçilib və ICAPP-ın hər iki qurumunun yenilənmiş fəaliyyət qaydaları qəbul edilib. Tədbirin sonunda ICAPP-ın Gənclər Qolunun və Qadınlar Qolunun Ulan-Bator Bəyanatları qəbul edilib.

# Ermənistanın təxribatı: nə baş verə bilər?

Günlərin birində bütün Qərbi Zəngəzurda Azərbaycan bayrağının dalğalanacağı da istisna olunmamalıdır!

Xarici qurumların Azərbaycanın Laçın sərhəddi yaxınlığında absurd "humanitar yardım" sirk-şousu yaradan ermənilərə dəstək verərək vəziyyətin gərginləşməsinə şərait yaradır. Lakin fakt budur ki, dünyaya Azərbaycan həqiqətlərini təsdiq etdirən 44 günlük Zəfər yürüşü həm də "Qarabağ Azərbaycandır!" şüarını erməni rəhbərliyinə qəbul etdirdi. Ancaq bu gün Ermənistan rəhbərliyinin yenidən "buynuz çıxarmaq" cəhdləri regionda vəziyyətin çərçivədən çıxmasına səbəb olmaqdadır.

### Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-keçid məntəqəsinin yaradılması tarixi hadisə olaraq Zəfər Savaşından sonra ikinci böyük uğurumuz sayılır

Bəli, söhbət Laçın sərhəd-keçid məntəqəsindən və Zəngəzur dəhlizindən gedir. İlk olaraq onu qeyd edək ki, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd keçid məntəqəsinin yaradılması tarixi hadisə olaraq Zəfər Savaşından sonra ikinci böyük uğurumuz sayılır. Bununla Zəfər Savaşındakı Qələbəmizə həm də rəsmi möhür vurulmuş oldu. Çünki Laçın yolu ermənilərin istədiyi kimi istifadə etdiyi marşruta çevrilmişdi və bu yolla Ermənistandan silah-sursat, hərbi texnika, minalar və canlı qüvvə daşınır, istənilən şəxs rahat şəkildə Azərbaycan ərazisinə girib-çıxa bilirdi.

### Bu addım Azərbaycan dövlətinin qətiyyətini və cənab Prezidentin "nəyi nə zaman etmək lazım olduğunu mən yaxşı bilirəm" həqiqətini bir daha təsdiq etmiş oldu!

Daşınan minaların Azərbaycan ordusunun hərəkət marşrutlarında basdırılması nəticəsində onlarla hərbçimiz və mülki vətəndaşlarımız şəhid olub. Sərhəd-buraxılış məntəqəsinin qurulması Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasını maksimum şəkildə məhdudlaşdırmış oldu. Bu addım Azərbaycan dövlətinin qətiyyətini və cənab Prezidentin "nəyi nə zaman etmək lazım olduğunu mən yaxşı bilirəm" həqiqətini bir daha təsdiq etmiş oldu!

Onu da qeyd edək ki, ötən müddət ərzində keçid məntəqəsində ermənilərin normal qaydada yoxlanılaraq gediş-gəlişinə şərait yaradılır, eyni zamanda, Azərbaycan Qarabağda yaşayan ermənilərə humanitar yardım üçün Ağdam Xankəndi yolunu təklif edir. Amma humanitar böhrandan dəm vuran ermənilər bu təklifi rədd ediblər. Əvəzində hər vəchlə çalışırlar ki, Laçın yolunda hansısa bir təxribata yol açsınlar. Ölkəmiz ilə razılaşdırmadan suveren ərazimizə "humanitar yük" adı altında avtomobil karvanı göndərən Ermənistan, sözün həqiqi mənasında, təxribat şousu yaradır. Təəssüfedici məqam isə budur ki, həmin klounadada bəzi bəlli Qərb diplomatları da iştirak edirlər.

### Aİ nümayəndələri Şarl Mişelin mövqeyini heçə sayırlar?!

"Humanitar karvan" yola salınmazdan əvvəl Ermənistandakı bəzi diplomatik nümayəndələr Ermənistan XİN-ə dəvət olunub, "zəruri planlama" aparıb. Ardınca isə Qərbin siyasi missionerləri "humanitar karvan"dan qabaq Laçın nəzarət-buraxılış məntəqəsinin yaxınlığında peyda oldu. Bu diplomatlar unudur ki, Azərbaycan tərəfinin addımları beynəlxalq hüquq normaları ilə müəyyənləşib: hər dövlətin sərhədi və sərhəd-keçid məntəqələri olduğu kimi, Azərbaycanın da qonşu dövlətlərlə sərhəd-keçid məntəqələri yaratması və burada öz suveren hüquqlarını qoruması təbiidir. Məqsəd həqiqətən də humanitar yüklər və keçidlər üçün istifadədirsə, heç bir problem yoxdur, Azərbaycan dövləti bunun üçün alternativ marşrut təklif edib. Ermənilərin havadarları Ermənistan rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünü tanıdığı halda, öz iddialarından əl çəkməlidir. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, rus sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə yaşayan ermənilər üçün yüklərin daşınması üçün Ağdam-Xankəndi marşrutundan istifadə oluna bilər. Bakının təklif etdiyi marşrutu Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel də təqdir və qəbul edib. Belə çıxır ki, indi "narahat" ermənilərin şousuna qatılan Aİ nümayəndələri Şarl Mişelin mövqeyini heçə sayırlar?!

Digər tərəfdən, son təxribat bölgədə sülhün bərqərar olmasına yox, yeni hərbi əməliyyatlara təkan verməyə yönəlib. İndi narahat olduqlarını deyən və Azərbaycana təzyiq göstərməyə çalışan avropalı siyasətçilər faktiki olaraq erməni separatçılığını, revanşizmini və aqressiv radikalizmini dəstəkləyir, Azərbaycanın ərazi bütövlüyünə saygısızlıq nümayiş etdirir, ən başlıcası isə, mövqelərimizdən zərrə qədər geri çəkilməyəcəyimizi anlamırlar. Onlar hesab edirlər ki, Azərbaycana bu təzyiqi etməklə ölkəmizi öz suveren hüquqlarından imtina etməyə nail olacaqlar. Amma unudurlar ki, Qarabağ Azərbaycan ərazisidir. Dünyanın heç bir yerində elə bir ölkə yoxdur ki, onun sərhədlərini istənilən vaxt, istənilən şəkildə humanitar yardım adı ilə pozub, qeyri-qanuni ora daxil olasan. Bu təxribat şousu da iflasa uğrayacaq. Ermənilər heç bir nəticə əldə edə bilməyəcək. Əksinə, İrəvan və onun himayədarları növbəti dəfə Azərbaycan qüdrəti qarşısında məğlub olacaq və bu, danılmaz aksiomadır.

### Qərbi Zəngəzurda Azərbaycan bayrağı!

İndi təxribatın sousu ilə nə qədər çabalasalar da, fitnə-fəsadlar törətsələr, əngəl olmağa çalışdıqları Zəngəzur dəhlizi mütləq açılacaq. Bu təxribat Azərbaycanın qarşısını ala bilməyəcək və gün keçdikcə, Zəngəzur dəhlizi aktuallıq çəkisini artırdıqca rəsmi Bakı lazım olan bütün addımları atacaq. Biz Müzəffər Ali Baş Komandanın "Nəyi nə vaxt necə etməyi" faktorunun real şahidləriyik və bunu dəqiq bildiyimizi bir neçə dəfə düşmənə sübut etmişik. Bu baxımdan, günlərin birində bütün Qərbi Zəngəzurda Azərbaycan bayrağının dalğalanacağı da istisna olunmamalıdır!

**Afət Tahirqızı**



# Oxumayın!

**Elçin Bayramlı**

Bir insanın dəyəri onun oxuduğu kitablarla ölçülür- Herbert Spencer

İnsanın bilikli, əxlaqlı, agıllı şəkildə formalaşması üçün ən əsas vasitələrdən biri mütaliədir. Texnologiyanın sürətli inkişafı son vaxtlar bu sahədə müəyyən problemlər yaradıb. İndi insanlar televizora, internetə, telefona daha çox vaxt ayırırlar, kitab oxumağa isə yox. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri var. Onlara keçməmişdən əvvəl mövzuya qısa bir giriş verək.

Sovet dövründə bizi tarixdəki ən böyük sosialist inqilabının ideoloqu və Sovet İttifaqının banisi Vladimir İliç Leninin məşhur sözü ilə böyütdülər- Oxumaq, oxumaq yenə də oxumaq! Bu şüar Sovet hakimiyyətinin əsas ideoloji siyasət konsepsiyası idi. Lakin elə həmin Lenin yazırdı: "Unutmaq lazım deyil ki, oxumaq məqsəd deyil, vasitədir. Oxumağın nəticəsində insan faydalı məlumat əldə etməli, faydalı şeylər öyrənməli və onları özünün və cəmiyyətin həyatında tətbiq etməlidir".

Kitab sözünü ölkə ilə assosiasiya edəndə hamının yadına SSRİ düşür. Sovet İttifaqı kitabxanaların sayına, dərc edilmiş kitabların ümumi tirajına və oxunma səviyyəsinə görə dünyada ilk yeri tuturdu.

Sovet dövründə ədəbiyyatın böyük missiyası var idi. Kitab elm, dünyagörüş, bilik verməklə yanaşı, insanlıq, xeyirxahlıq, namusluluq, vətənpərvərlik, fədakarlıq, səmimilik, doğruluq, zəhmətkeşlik, vicdanlılıq kimi müsbət əxlaqi dəyərləri təbliğ edir, bu keyfiyyətlərə sahib müsbət qəhrəmanları örnək göstərirdi.

Mənfi qəhrəmanlar isə elə ustalıqla ifşa və rüsvay olunurdu ki, heç kim ondan nümunə götürməyi ağlına belə gətirə bilməzdi. Yazıçılar ədəbi tryuklarla cəmiyyətə insani dəyərləri təbliğ edirdilər. İndi bəzən hansısa "postmodernist yazıçı" çıxıb ortalığa deyir ki, bəs ədəbiyyatın belə missiyası və öhdəliyi yoxdur. Ədəbiyyat bir kommersiya fəaliyyətiymiş və bazara hesablanmalıymış.

Ona görə də, ucuz bulvar romanları, porno səhnələrin təsvir edildiyi, əcaib, hətta iyrənc motivlərin uydurulduğu cızma-qaralar cəlbedici adlar qoyulmaqla ədəbiyyat adına oxuculara sırınmalıymış ki, bəzi dələduzlar pul və şöhrət qazansınlar.

Əvvəla, bunlara kim deyib ki, oxucuların səviyyəsi bu qədər aşağıdır və belə "əsərlərə" tələbat var? Axı, əvvəla bizim ölkənin kitab bazarının həcmi, hansı kitabın nə qədər tirajla buraxıldığı və satıldığı haqda hərdən elan olunan təxmini rəqəmlər belə şübhəlidir və şəffaf deyil.

İkincisi, bu postmodernist yazıçılar niyə oxucunu öz səviyyələrinə salmalıdır ki, bəlkə özləri oxucunun səviyyəsinə yüksəlsələr? Üçüncüsü, kim və necə müəyyən edir ki, hansı yazıçılar, hansı mövzular, hansı əsərlər cəmiyyətin istəyini təmin edir?

Televiziyaların insanı xəbər, serial, şou bombardmanına tutduğu, informasiya əsrinin ən böyük vaxt oğrusu internetin geniş yayıldığı bir vaxtda ortaya daha bir problem çıxır- nə oxuyaq ki itirdiyimiz qiymətli vaxta dəysin.

İndi kitab bazarındakı əksər yeni əsərlərə baxanda adam düşünür ki, belə kitabları oxumamaq yaxşıdır. Müasir ədəbiyyat olduqca ruhsuz, duyğusuz, mənəvi boşluqla maddi həzzlərin paralel müşahidə olunduğu kağız yığnağıdır.

Birmənalı olaraq postmodernist ədəbiyyat cəmiyyətə müsbət dəyərlər təbliğ etmir, insanlara ancaq azad cinsi münasibətləri, içki və siqaret kimi zərərli vərdişləri, tüfeyliliyi, eqozimi, cinayətkarlığı, zorakılığı, ağlagəlməz murdarlıqları təbliğ edir.

Elə bir dövrə gəlmişik ki, artıq kitab oxumaq əksər hallarda insana və cəmiyyətə zərər vurur. Təhlükəli "dini" ədəbiyyat, intim ədəbiyyat, kriminal aləmi öyən və caniləri nümunə göstərən zərərli kitablar əksəriyyət təşkil edir. Deməli, çox oxumaqdan yox, nə oxumaqdan söhbət getməlidir. Ona görə də, əgər müasir ədəbiyyatı oxuyacaqsınızsa, yaxşısı budur oxumayın! Müasir ədəbiyyatın əxlaqı yoxdur! Psixologiyanızı, əsəblərinizi, əxlaqınızı qoruyun! Oxumayın!

Bəs nə oxuyaq? XX əsrdə çap edilmiş dəyərli kitabların sayı-hesabı yoxdur. Onları bukinist mağazalardan və kitabxanalardan əldə edə bilərsiniz. Birdəfəlik başa düşmək lazımdır- tək-tək istisnaları nəzərə almasaq, ədəbiyyat XX əsrdə bitmişdir!

# Ermənistanın dağ-mədən sənayesindəki işləri ciddi ekoloji böhrana yol açır

## İLHAM ƏLİYEV: "Burada işləyən xarici şirkətlər və yerli şirkətlər Azərbaycan qanunlarına hörmət etməlidirlər. Hörmət etməyəcəklərsə, onların fəaliyyəti burada mümkünsüz olacaq"




**Terrorizm sözü özündə ekoloji terror ifadəsini də ehtiva edir, lakin heç kim hansı terrorun daha dəhşətli olduğu ilə bağlı mübahisə edə bilməz. İlkin olaraq qeyd edək ki, ekoloji terror əsasən münaqişə dövründə ətraf mühitin qəsdən və ya qanunsuz şəkildə məhv edilməsi, istismarı və ya dəyişdirilməsi kimi xarakterizə olunur. Bu baxımdan təcavüzkar Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Azərbaycan torpaqlarında törətdiyi barbar davranışlar nəticəsində Azərbaycanın fauna və florasına böyük ziyan dəyib. İndiki halda Ermənistanın siyasi rəhbərliyi eko terroru başqa istiqamətlərdə davam etdirir. Məsələn, Naxçıvan yaxınlığında Ermənistanın tikdiyi zavod bütövlükdə, regionda ekoloji tarazlığa qarşı təhdiddir.**

İyulun 11-də Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə dövlətimizin başçısı ekoloji məsələlərə xüsusi diqqət yetirib, Ermənistanın Azərbaycana qarşı illərdir davam edən ekoloji terroruna toxunub.

Prezident İlham Əliyev müşavirədə bildirib ki, Qarabağ və Şərqi Zəngəzur ekoloji fəlakət zonasına çox yaxın idi. Çünki Ermənistan həm Ermənistandakı müəssisələrin fəaliyyəti nəticəsində, eyni zamanda, o vaxt işğal edilmiş torpaqlarda - Qarabağda və Şərqi Zəngəzurda təbii resurslarımızın vəhşicəsinə istismarı nəticəsində təbiətimizə böyük zərbə vurub. Təkcə onu demək kifayətdir ki, 60 min hektardan çox meşə fondu ermənilər tərəfindən dağıdılıb, talan edilib, çıxarılıb, satılıb, yaxud parket düzəldiblər və satıblar. Dövlət başçısı transsərhəd təhlükələrinin mütləq nəzərə alınmalı olduğunu deyib. Azərbaycanın burada sərgilədiyi mövqeyin beynəlxalq təcrübəyə, beynəlxalq konvensiyalara əsaslandığını söyləyib.



İlk növbədə onu vurğulamaq lazımdır ki, Ermənistan illərdir ki, Azərbaycana qarşı ekoloji terror həyata keçirir. Ərazilərimiz işğalda olduğu vaxtda Ermənistan ətraf mühitə ciddi ziyan vurub, meşələri məhv edib, zərərli tullantılarla çayları çirkləndirib. Ermənistanın addımları bu gün də bölgə üçün təhdidlər yaradır. Belə ki, bu ölkənin Azərbaycanla sərhəddə metallurgiya zavodu inşa etməsi potensial risklər yaradır. Bu günlərdə Azərbaycanın qeyri-hökumət təşkilatları Ermənistandakı dağ-mədən sənayesi müəssisələrinin ağır fəsadları barədə Baş nazir Nikol Paşinyana müraciət ediblər. Müraciətdə Naxçıvanla sərhəddə - Arazdəyəndə ekoloji normaların, beynəlxalq konvensiyaların tələblərinə zidd inşa edilən yeni metallurgiya zavodunun tikintisinin dayandırılmalı olduğu vurğulanıb. Çünki bu metallurgiya zavodunun zəhərli kimyəvi tullantılarının yerli ekosistemə potensial təsirləri çox böyük ola bilər. Tullantıların Araz çayına axıdılması çayda yaşayan canlılar və suvarma üçün Araz suyundan istifadə edən iri təsərrüfatlar üçün faciə deməkdir. Ümumiyyətlə, Ermənistanın dağ-mədən sənayesində aparılan işlər beynəlxalq ekoloji norma və standartları kobud şəkildə pozmaqla, ciddi ekoloji böhran, təhdidlər yaradır.



Dövlət başçısı, həmçinin QHT-lərin Ermənistanın bölgədə yaratdığı ekoloji təhdidlə bağlı N.Paşinyana müraciəti, eləcə də işğalçı ölkənin dağ-mədən sənayesi müəssisələrinin ağır fəsadları barədə fikirlərini bildirmişdi.

### ERMƏNİSTAN DAĞ-MƏDƏN SƏNAYESİNİN CƏNUBİ QAFQAZ REGİONUNDA EKOLOJİ SABİTLİYİ POZMASI BARƏDƏ BAŞ NAZİR NİKOL PAŞİNYANA AÇIQ MƏKTUB

Azərbaycan Respublikasında fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları beynəlxalq ekoloji norma və standartları kobud şəkildə pozmaqla, Ermənistan Respublikasının dağ-mədən sənayesində aparılan işlərin ətraf mühitə regional və qlobal təsirlərinin yol açdığı ciddi ekoloji böhranla bağlı dərin narahatlığı ifadə edən bu məktubda bildirilib ki, davam edən mədən əməliyyatları nəticəsində ekosistemin korlanması təkcə Ermənistanın ətraf mühiti üçün təhdid deyil, həm də qonşu ölkələrə böyük təhlükədir. Ekoloji zərərin transsərhəd xarakteri regionda və ondan kənarda yaşayan icmaların sağlamlığını və rifahını riskə atır. Və Vətəndaş Cəmiyy1əti təşkilatları beynəlxalq ekoloji norma və standartları, region əhalisinin hüquqlarını pozmaqla aparılan dağ-mədən sənayesi işlərinin dayandırılmasını tələb edərək bildirib ki, BMT-yə üzv dövlətlər təmiz hava, təhlükəsiz içməli su və sanitariya kimi amilləri sağlamlığın ətraf mühit amilləri kimi tanıyıb. Eyni zamanda, BMT təmiz, sağlam və davamlı ətraf mühiti əsas insan hüququ kimi tanıyır. Lakin Ermənistan bu ekoloji cinayətləri törətməklə, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin, xüsusən "Yaxşı Səhiyyə və Rifah" üzrə 3-cü, "Təmiz Su və Sanitariya" ilə bağlı 6-cı, "Məsuliyyətli İstehsal və İstehlak" üzrə 12-ci, "İqlim Dəyişikliyinin Fəsadlarına qarşı Mübarizə"yə dair 13-cü, "Torpaq Ekosisteminin Mühafizəsi" üzrə 15-ci Məqsədlərinin tamamilə əleyhinə çıxış edir.

### ERMƏNİSTANIN DAĞ-MƏDƏN SƏNAYESİNİN TULLANTILARI AZƏRBAYCANA GƏLƏN BÜTÜN ÇAYLARI ZƏHƏRLƏYİR

"Səma və EKO" İqtisadi İnkişafa Yardım İctimai Birliyinin sədri İradə Həsənovanın sözlərinə görə, Ermənistanın dağ-mədən sənayesində aparılan işlərin ətraf mühitə regional və qlobal təsirləri çox ciddi ekoloji böhrana yol açır: "Bu ölkə BMT-yə üzv olmasına baxmayaraq, həmin təşkilatın qanun və konvensiyalarını ciddi şəkildə pozur. Ermənistanın öz vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatları belə bununla bağlı etirazlarını bildirirlər. Bu, region üçün çox ciddi məsələyə çevrilib". İ.Həsənova vurğulayıb ki, Ermənistanın dağ-mədən sənayesinin tullantıları Azərbaycana gələn bütün çayları zəhərləyir: "Ətraf mühitin və onun komponentlərinin bu cür mənfi təsirə məruz qalması nəinki Azərbaycanı, eyni zamanda, Gürcüstan, Türkiyə, hətta Ermənistanın özünü ekoloji təhlükə ilə üz-üzə qoyur. Həm atmosferə buraxılan qazlar müxtəlif xəstəliklər yaradır, həm də su hövzələri çirkləndirilir. Nəinki Arazdəyəndə, Ermənistanın bir çox yerində tikilən zavodların tullantıları hamısı çaylara axıdıldığı üçün su ehtiyatlarımıza çox ciddi şəkildə zərər dəyir. Həmin çaylardan nəinki Azərbaycan, Gürcüstan, Ermənistanın özü də istifadə edir. Çayların suyundan kənd təsərrüfatında geniş istifadə edildiyi üçün iqtisadiyyatın bu önəmli sahəsi də böyük ziyana məruz qalır.



Bu yerdə Ulu öndər Heydər Əliyev haqlı olaraq hesab etdiyi fikrə əsasən dünyanın harasında baş verməsindən asılı olmayaraq, təbiətə edilən qəsd əslində bütün bəşəriyyətin gələcəyinə, dünyanın ekoloji təhlükəsizliyinə vurulan zərbədir və buna qarşı bütün dünya birlikdə mübarizə aparmalıdır. Elə bu səbəbdən də ümummilli lider Heydər Əliyev başda region dövlətləri olmaqla bütün dünyanı Ermənistanın ekoloji cinayətlərinə qarşı birgə mübarizə aparmağa səsləyirdi. Ermənistanın ekoloji cinayətlərinin ifşası prosesi bu gün Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Vətən müharibəsində qazanılan Zəfər nəticəsində azad edilən əzəli yurd yerlərimizdə törədilən ekoloji cinayətlər, təbiətə qarşı həyata keçirilən soyqırımı siyasəti dünya mediasının və beynəlxalq ictimaiyyətin mütəmadi şəkildə diqqətinə çatdırılır. Və bugünkü Ermənistanın ekoloji terroruna "dur" deməyin vaxtıdır.

***RƏFİQƏ HÜSEYNOVA***

Son illər aparılan sorğuların da, seçkilərin də nəticələri təsdiq edir ki, erməni cəmiyyəti Ermənistanda dəyişiklik istəmir. Ermənilərin belə dəyişiklik istəməməsinin səbəbi ölkə hakimiyyətinə inamın, etibarın olması, yaxud onun dəstəklənməsi demək deyil, sadəcə olaraq, mövcud hakimiyyətə alternativin olmamasından irəli gəlir. Daha dəqiq desək, görünən odur ki, ermən cəmiyyəti bir zaman küçə və meydanlarda pafoslu çıxışlar edən əli sarıqlı, beli çantalı nümayişçiyə artıq güvənməsə də, ondan əvvəlkilərə, həmin cəmiyyətin bərbad vəziyyətə düşməsinə səbəbkar olanlara, hazırkı erməni müxalifətinə ümumiyyətlə, inanmır və belə demək mümkünsə, onları heç yaxına belə buraxmaq istəmir. Bu fakt özünü həm seçkilərdə, həm mitinqlərdə, həm də sorğularda dəfələrlə təsdiq edib və bu gün də təsdir etməkdədir.



# GALLUP

## sorgusu ilə üzə çıxan

# MƏNZƏRƏ

Doğrudur, bir zamanlar heç də sorğulara etibar edilmirdi. Məsələn, SSRİ dövründə sosioloji sorğuların məxsusi olaraq, hakimiyyətin maraqları naminə keçirildiyi düşünülürdü. Hətta həmin sorğuların məhz hakimiyyətin sifarişi ilə təşkil olunduğu qənaətində olanlar da azlıq təşkil etmirdi. Məsələ burasındadır ki, artıq indiki zamanda sorğular hökumətin sifarişi ilə deyil, mötəbər xarici strukturlar tərəfindən aparılır və bu zaman sorğunun nəticələrinə etibar etməmək məntiqi deyil. Elə erməni cəmiyyəti də yaxşı bilir ki, mötəbər xarici strukturlar tərəfindən təşkil olunan sorğuları etibarsız saya bilməz və hazırkı sorğular həmin cəmiyyətin hansı durumda olduğunun elə həmin cəmiyyətin özü tərəfindən də etiraf edilməsi deməkdir.

Ermənistanla bağlı Amerikanın ictimai rəy institutu olan GALLUP Beynəlxalq Assosiasiyasının apardığı sorğunun nəticələrinə nəzər saldıqda görürük ki, bu sorğuda həqiqətən də erməni cəmiyyətinin etirafları öz əksini tapıb. Görürük ki, həqiqətən də aparılan sorğu erməni cəmiyyətindəki əhval-ruhiyyəni tam çılpaqlığı ilə ortaya qoyub. Hətta, belə demək mümkünsə, GALLUP kimi mötəbər xarici struktur tərəfindən aparılan sorğu işğalçı ölkədə cəmiyyətin nəbzini ifadə etmiş olub və mövcud durumun nə vəziyyətdə olduğu da öz əksini tapıb.

Diqqətə çatdıraq ki, ötən həftənin cümə günü İrəvanda keçirdiyi mətbuat konfransında GALLUP Beynəlxalq Assosiasiyasının Ermənistan nümayəndəliyinin direktoru Aram Navasardyan ictimaiyyətə sorğunun nəticələrini təqdim edib və nəticələr, hətta erməni cəmiyyətinin vəziyyəti barədə bilməyənlərdə belə kifayət qədər aydın təsəvvür yaradır. Sorğuların nəticələri hakim "Mülki Müqavilə" fraksiyasının yenə də parlament seçkilərində qalib gələcəyindən xəbər verir. Eyni zamanda, nəticələr onu deməyə əsas verir ki, respondentlərin 13,3%-i Dövlət Dumasına, 3,8%-i "Ermənistan" blokuna, 1,8%-i "Çiçəklənən Ermənistan"a, 1,5%-i isə "Mənim şərəfim" fraksiyasına səs verəcək. Ən böyük uğursuzluq yenə də "Daşnaqsütyun" üçün gözlənilir. Belə məlum olur ki, respondentlərin maksimum 0,8%-i ona səs verə bilər. Bu anons erməni cəmiyyəti barədə yetərincə məlumatlanmaq üçün kifayət edir və bir çox mətləblərdən xəbər verir.



Navasardyanın mətbuat konfransında ictimaiyyətə açıqladığı rəqəmlərdən, statistikadan belə məlum olur ki, Ermənistan vətəndaşları bundan sonra ümumiyyətlə, seçkiyə getmək fikrində deyillər. Yəni, ilk öncə də qeyd etdiyimiz kimi, ermənilər seçim etmək kimi bir qərar verməyiblər. Bir halda ki, respondentlərin 36,3 %-i ümumiyyətlə seçkiyə getməyəcəklərini bildiriblərsə, deməli, belə qənaətə gəlməkdə haqlıyıq. İndi ermənilər özləri hamıdan yaxşı bilirlər və fərqindədirlər ki, siyasi rəqiblər arasında çox böyük bir uçurum var. Ən çox diqqət çəkən isə, belə bir siyasi vəziyyət heç ermənilərin özləri üçün qəribə, yaxud qeyri-adı görünmür. Görünür, elə buna görə də işğalçı ölkədə insanlar öz fikirlərini açıq şəkildə söyləməkdən çəkinməyiblər və seçkilərin qətiyyən onların maraqları daxilində olmadığını açıq-aşkar şəkildə bildiriblər.

Əlbəttə ki, Nikol Paşinyanın bugünkü reytinqi 2018-2019-cu illərdə onun erməni xalqı qarşısında pafoslu çıxışlar etdiyi zamankı qədər ola bilməz. Həmin dövrlərdə öz xalqına qızıldan dağlar vəd edən birinə heç 2020-ci ilin birinci yarısında göstərilən etimad belə indiki dövrlə müqaisəyə gəlməz. Sözsüz ki, 44 günlük müharibədə düçar olduqları rüsvayçı məğlubiyyətin fonunda Nikol barəsində hansısa ermənin yüksək fikirdə olması mümkün deyil. Bununla yanaşı, rəsmi İrəvanın diplomatik müstəvidə də məğlubiyyətlərlə üzləşməsi erməni baş nazir üçün arzuolunan sayılmır və ona olan son ümidlərin belə sarsılması deməkdir. Üstəlik, işğalçı ölkənin rəzalətlə qarşılaşması, səfil vəziyyətə düşməsi, miqrasiyanın günügündən artması erməni baş nazirin yox dərəcəsində olan nüfuzunu tamamilə sıfıra endirmiş olub.




Görünən odur ki, bütün bunlara, yəni ermənı baş nazirə olan etimadın, etibarın sıfıra enməsinə baxmayaraq, yaxın gələcəkdə seçkilər baş tutsa, Nikol yenə asanlıqla qalib gələ biləcək. Sorğunun nəticələrindən görünür ki, Koçaryan, Sarkisyan, daşnaklar və digər müxalifət qüvvələri bir blokda birləşsələr belə istəklərinə nail ola bilməyəcəklər və Paşinyanı məğlub etmək onların yuxularına da girə bilməz. Belə məlum olur ki, respondentlərin böyük əksəriyyəti sadəcə olaraq, Paşinyanı özlərinə daha az zərərverici, daha kiçik şər hesab edirlər və hələlik onu digərlərinə baxanda məqbul sayırlar. Ermənistanda insanlar dəyişiklik haqqında da ona görə düşünmürlər və elə hesab edirlər ki, Koçaryan, Sarkisyan kimi əbədi nifrətə layiq olanlardansa, hələlik, yenə də Nikol qalsa yaxşıdır.

Erməni cəmiyyəti hərdən küçə və meydanlara üz tutur və mövcud hakimiyyətə qarşı narazılığını da ifadə edir. Amma göründüyü kimi, əvvəla, İrəvann küçələrində təşkil olunan etiraz aksiyalarında sona qədər idealı şəkildə çıxış edilmir. Digər tərəfdən də axı etirazçıların sayı da göstərir ki, Paşinyandan nə qədər narazı olsalar belə, sonda Ermənistan vətəndaşları Koçaryana və Sarkisyana deyil, könülsüz də olsa, ona Vovayeviçə səs verəcəklər, hansıki sorğunun nəticələri də bunu təsdiq edir. Ermənistanda müxalifət qüvvələri Nikol Paşinyanın istefası tələbi ilə nə qədər çıxış etsə də, indiki hakimiyyətə qarşı nə qədər kəskin mövqe nümayiş etdirsə də, bunun, etiraz aksiyalarının çoxsaylı, yaxud izdihamlı olmaması bəzi məqamlardan xəbər verir. Ermənisyan müxalifətinin, əvvəlki hakimiyyətin, xunta rejiminin, cinayətkar rejimin indiki hakimiyyəti devirmək üçün lazım olan kütləni toplaya bilmədikləri göz önündədir və buna görə də heç bir nəticə verə bilmir, hansıki sorğunun nəticələri də bunu açıq-aydın şəkildə təsdir edir.

Ermənistanın mövcud hakimiyyəti erməni cəmiyyətini qane etməsə də, Paşinyanın hələlik real alternativi gözə dəymir, çünki onun güclü və bir dənə də olsa gənc siyasi rəqibi yoxdur. Məsələn, 2018-ci ilin yazında olduğu kimi, müxalifət xalq dəstəyinin onda birini belə toplaya bilmirsə, vəziyyətin nə yerdə olduğunu ermənilər özləri hamıdan yaxşı bilirlər. Əgər Koçaryanın, Sarkisyanın və daşnakların düşərgələrində bu günə qədər vəziyyətin dəyişəcəyinə inanılırdısa, sorğunun nəticələri onları çox məyus etmiş oldu. Ona görə məyus etmiş oldu ki, Ermənistandakı siyasi Olimpi fırtına ilə ələ keçirə bilən, erməni cəmiyyətini qızışdırıb vəziyyəti dəyişdirə bilən gənc siyasətçilərin olmadığı aydın şəkildə üzə çıxdı. Üzə çıxdı ki, "keçmişin" düşərgəsində olanlara, Koçaryan və Sarkisyan kimi əclaflara kimsə inanmır və onların Ermənistanı məhvə sürüklədiyi erməni cəmiyyətində dərk olunur. Məhz sorğunun nəticələri ən azından bunu deməyə əsas verir ki, sonuncu səsvermə zamanı belə erməni cəmiyyəti Paşinyana deyil, əvvəlki rejimin, canilərin, cinayətkarların uzaqlaşdırılmasına səs verməli oldu. Daha dəqiq desək buna məcbur qaldı. Təsadüfi deyil ki, son sosioloji sorğunun məyusedici nəticələrinə görə, Ermənistanın ikinci və üçüncü prezidentinin kabinetində onlar üçün əsəbi ab-hava hökm sürür. Əlbəttə ki, bu, başa düşüləndir, çünki onlar Paşinyanı devirmək üçün nə qədər qədər vəsait xərcləsələr də, səy göstərsələr də, özlərinin dili ilə desək, "nankor" erməni xalqı onların səylərini qiymətləndirmədi. Əslində isə, erməni xalqı gec də olsa vəziyyəti görməyə başlayıb və sorğunun nəticələri göstərir ki, bu zamana qədər aldadıldıqlarının fərqindədir.

Əslində, GALLUP Beynəlxalq Assosiasiyası öz sorğusu ilə Ermənistanın iç üzünü, mənzərəsini açıb ortaya qoydu. Ortada olan odur ki, hələ də kimlərsə, daha dəqiq desək, Ermənistanda cinayətkar rejim öz hakimiyyəti naminə erməni xalqını alət olaraq istifadə etmək niyyətindədir və respondentlərin cavablarından belə məlum olur ki, onların belə çirkin niyyətlərinin fərqində olanlar artmaqdadır. Bu günə qədər hansısa bir manipulyatorun oyunlarına alət edilən ermənilərin deyəsən "ayılmaq" astanasında olduğu sorğunun nəticələrində özünü göstərir. GULLOP sorğusu Ermənistanın əsl mənzərəsini açıq şəkildə ortaya çıxardı ki, bu, elə erməni cəmiyyətinin özü üçün bu gün ən lazım olan məqamdır.

**İnam Hacıyev**

# Milli-mənəvi dəyərlərimizin mayakı...

***Zamanın, tarixin yetişdirdiyi dahi şəxsiyyətlərdə Tanrının bəxş etdiyi bir keyfiyyət onları başqalarından fərqləndirir-onlar möhtəşəm bir işi, xilaskarlıq missiyasını-xalqını məhvolma təhlükəsindən qurtarmaq, öz işıqlı ideyaları və əməlləri ilə insanları uzun illər həsrətində olduğu azadlığa, müstəqilliyə qovuşdurmaq missiyasını... yerinə yetirirlər. Xalqımıza bu şərəfli missiyanı daşımaq üçün Böyük İnsan, Müdrik Xilaskar Heydər Əliyev bəxş olunmuşdur. Həyat və fəaliyyəti tarix üçün bir örnək, xalqlar üçün bir nümunə olan Ümummilli lider yaşadığı ömürdə nəsillərin minillik arzusunu tarixi reallığa çevirə bilmiş, Azərbaycan xalqına böyük zəhməti hesabına ərsəyə gətirdiyi şah əsərini - müstəqil, demokratik Azərbaycanı bəxş etmişdir. Ulu öndər öz bacarığı, şəxsi nüfuzu və əməli fəaliyyəti ilə Azərbaycanı qısa müddədə dünyada tanıtdı, dünya ölkələri ailəsinin tamhüquqlu üzvləri sırasına çıxardı-ölkəmiz Qafqaz regionunun siyasi, iqtisadi, hərbi təsir gücünə malik ən nüfuzlu dövlətinə çevrildi. Cəmiyyət həyatı önəmli insanlarla, böyük tarixi şəxsiyyətlərlə zaman-zaman zənginləşir. Təbii ki, şəxsiyyətlərin tarix və cəmiyyəti zənginləşdirməsi bu və ya digər xalqın həyatında say və kəmiyyət etibarı ilə həmişə fərqli olmuşdur.***

Hər bir xalqın milli özünəməxsusluğunu şərtləndirən amillər onun dövlətçilik ənənələri ilə yanaşı, həm də zəngin maddi - mənəvi mədəniyyət nümunələri əsasında müəyyənləşir. Tarixən formalaşmış ənənələr, mental baxışlardan qaynaqlanan mənəvi - əxlaqi dəyərlər hər bir etnosun kimliyinin, milliliyinin, kamillik səviyyəsinin təcəssümü olmaqla yanaşı, həm də bəşər sivilizasiyasına verdiyi gözəl töhfədir. Milli kimliyi ifadə edən bu dəyərlər hər bir xalqın toxunulmaz xəzinəsi hesab olunur. Qarşısıalınmaz qloballaşma prosesinin müxtəlif xalqlar üçün yaratdığı milli - mənəvi aşınma təhlükəsi indi bu dəyərlərə əvvəlki dövrlərdə olduğundan daha həssaslıqla yanaşmağı tələb edir. Bir çox dövlətlər qloballaşma, inteqrasiya prosesindən öz mənfur niyyətləri üçün istifadə edir, bu problemi amerikallaşma, avropalaşma axarına yönəltməyə cəhd edirlər. Məsələnin bu həddə çatması ilə bağlı həyacan təbilini ilk dəfə Azərbaycan Prezidenti çalmışdır. Etnik - milli mövcudluğun siyasi, iqtisadi, mədəni - mənəvi suverenliyi ilə bağlı milli konsepsiya və konseptual ideyalar isə yekcins deyildir. Bu prosesi sosial - siyasi, iqtisadi və elmi - intellektual müstəvilərdə vahid qlobal harmoniya hesab edənlər də, Kainatın daha çox vahid mərkəzdən idarə olunan bürokratik - texnoloji ərazi vahidinə çevrilmə prosesi olduğunu iddia edənlər də var. Ən müxtəlif mövqe və münasibətlərdən asdı olmayaraq qloballaşmaya doğru istiqamətlənmiş nəhəng inteqrasiya magistralı bəşəriyyəti öz ardınca aparır. Mümkün optimal variant isə bu prosesə hər bir etnosun milli - mənəvi "Mən"ini dərk edərək qoşulmasından ibarət ola bilər. Bəlkə də bu zərurətin dərkindən doğan həqiqətin nəticəsidir ki, indi qloballaşma aurı - aurı xalqların etnik - mənəvi köklərinə yenidən dönüşü ilə xarakterizə olunur.

Azərbaycan xalqının əsrlər boyu formalaşmış yüksək mənəvi dəyərlərini pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, milli irs və özünəməxsusluğunu gələcək



*Yaşar Əhmədov*
*Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

nəsillərə ötürmək kimi çətin missiya məhz Ümummilli liderin üzərinə düşmüşdür. Müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi ortaya çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın milli - mənəvi dəyərlərinin qorunması məsələsini də çağdaş zamanın aktual problemlərindən birinə çevirmişdir. Bir çox hallarda total əxlaqın və çoxtərəfli inteqrasiyanın tələbləri əsrlərin "mirasına" - milli - mənəvi ideallara qarşı yönəlir. Vətəndaşların sosial rifah halının yüksəldilməsini özünün mühüm fəaliyyət istiqamətlərindən biri sayan Ümummilli liderin böyüklüyü rəhbər vəzifəyə gəldiyi gündən bu təhdidi düzgün qiymətləndirməsi, daim diqqət mərkəzində saxlaması və potensial təhlükə mənbəyinə çevrilməsinin qarşısını almasıdır.

Ümummilli liderin öz Vətəninə, xalqına, milli irs və ənənələrinə bağlılığı həmin təhdidlərin qarşısında əzəmətli sipərə çevrildi, bütövlükdə xalqın genetik yaddaşını qorudu. Bu dahi şəxsiyyət hələ keçmiş sovetlər dövründə türkdilli xalqların min illərin sınağından çıxmış mədəniyyətinə, tarixinə, ənənəsinə həddən artıq bağlı olmaqla yanaşı, onların qorunması üçün əlindən gələni əsirgəməmişdir. Tarixən yalnız milli iradənin, irs və ənənələrin, düşüncə sisteminin parlaq təzahürü kimi yaranmış dövlət modeli sərt sınaqlar qarşısında duruş gətirərək inkişafın əsasına çevrilir. Bu cür milli dövlət modeli isə, ilk növbədə, sağlam cəmiyyətdə inkişaf edərək xalqın mənəvi dəyərlər sisteminə əsaslanır. Sağlam mənəviyyatlı, yüksək ixtisaslı insanlardan ibarət cəmiyyət qarşıya çıxan bütün problemləri asanlıqla həll edir, monolit bir qüvvə kimi fəaliyyət göstərə bilir. Cəmiyyətin sağlamlığını çoxlu əlamətlərdə axtarmaq olar, lakin bu əlamətlərin hamısı əsas bir göstəricidə-ölkənin iqtisadi və mənəvi tərəqqi sürətində-özünü büruzə verir. Hamı Azərbaycanda baş verən yüksək iqtisadi tərəqqinin şahididir-bu sürət bu gün bütün dünyanı da heyran qoymuşdur. Sabahkı uğurlara yeganə təminat - sağlam cəmiyyət quruculuğuna diqqəti artırmaq, köklü mənəvi dəyərləri yeni nəslə və bütün cəmiyyətə daha dərindən və əzmlə aşılamaqdır. Əzmlə, ardıcıl olaraq xalq və milli dövlət dəyərlərinə xidmət Ulu öndərin şəxsiyyətinin əsas cizgilərindəndir-o bütün həyatını, ömrünü, ağlını, zəkasını böyük milli məqsədlərə sərf etmişdir. Bu rəhbərin dövlətçiliyi və millətçiliyi tarixi əhəmiyyət kəsb edən məqsədlərə tərəf ardıcıl və başlıcası isə, həmişə böyük nəticəli hərəkət idi-bu da Ulu öndərin şəxsiyyətinin çox qiymətli sosial və pedaqoji keyfiyyəti idi.

Ulu öndərin həyat nümunəsi, onun öz işinə bağlılığı hər kəsi adi xidmətə yox, böyük tarixi və milli məqsədli xidmətə sövq edir. Xalqımızın sürətli tərəqqisinə nail olmaq planları böyük rəhbərin milli təhsil sisteminə gündəlik qayğı ilə ayrılmaz olmuşdur-onun hakimiyyəti dövründə Azərbaycanın təhsili demək olar ki, yenidən quruldu. Ümummilli lider hesab edirdi ki, qabaqcıl kadrları olmayan xalqın inkişaf etmiş dövləti ola bilməz. İqtisadiyyatda yaratdığı yeni sənaye sahələri üçün Ulu öndər keçmiş sovetlər birliyinin bütün qabaqcıl ali məktəblərində kadrlar hazırladır, minlərlə gənci respublikadan kənara təhsilə göndərir, hər il Bilik günü məktəblərə gedir, təhsilimizin gələcəyi barədə öz tövsiyyələrinin verirdi-o bu yanğısı, diqqəti və idrakı ilə həm də hamının müəllimi statusunu qazana bildi. Bütün dövrlərdə, hər bir cəmiyyətdə tərbiyə onun əyani şəxsi nümunəsi olanda uğurlu olur. Tanrı bu nümunəni bizə bəxş etməklə gənc nəslin tərbiyəsi işinə böyük töhfə vermişdir. Milli ruhda tərbiyə alan insanın ən yaxşı ideal nümunəsi Ümummilli liderin mübarizələr və qələbələr dolu tərcümeyi-halıdır. Təəssüflə etiraf etdək ki, biz bu bioqrafiyanın əsas mənasını, onun pedaqoji fəlsəfəsini kifayət qədər tədris və təbliğ edə bilmirik. Ulu öndərin həyat yolunu əks etdirən materialların, əyani vasitələrin, kitab və filmlərin azlığı və natamamlığı hiss olunur. Mövcud kino materiallarında sovet dövrünün təbliğat ştampları çox qabarıqdır. Bu ştampların arxasında böyük şəxsiyyətin milli səciyyəsi, milli zəmin və dəyərlərlə bağlılığı öz əksini bəzən çox zəif tapmışdır.

Ümummilli liderin bütün fəaliyyətinin başlıca qayəsini məhz azərbaycançlıq ideya təşkil edir. Onun fikrincə, ölkənin hər bir vətəndaşı müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi üçün şəxsi məsuliyyət daşıdığını dərk etməlidir-bunun üçün, ilk növbədə hər kəsdən milli həmrəylik tələb olunurdu. Azərbaycan dövləti müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya oldu: "Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnərək hər bir insanın inkişafının təmin olunması deməkdir". Dünya azərbaycanlılarının I qurultayında da Ümummilli lider ona məxsus müstəqillik, müasirlik və azərbaycançılıq ideologiyasının konturlarını dəqiqləşdirdi. "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır"-fikrini söylədi və açıq bəyan etdi ki, "bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır".

İnsan elə bir ilahi varlıqdır ki, heç zaman birdəfəlik onun bütün xüsusiyyətlərini sadalaya bilməzsən, nə qədər ona çox diqqət yetirirsən, onda bir o qədər çox yeni xüsusiyyətlər aşkarlanır və onların təsviri sonsuza qədər uzanır- Ümummilli lider, dünyanın siyasət panteonunda öz yeri olan Ulu öndər də məhz belə insanlardandır. Onun doğma Azərbaycan qarşısında xidmətləri təkcə hakimiyyət olimpində olduğu illərlə bitmir. Ümummilli lider bütün həyatını canı qədər sevdiyi Azərbaycana, onun tərəqqisinə, inkişafına, müstəqilliyinə, təhlükəsizliyinə, əminamanlığına həsr edən böyük vətəndaş olmuşdur. Ulu öndərin həyatının mübarizələrlə dolu olan mərhələlərini öyrəndikcə görürük ki, o həqiqətən böyük xaraktere malik, misilsiz şəxsiyyət olmuşdur. Filosoflar belə şəxsiyyətlər haqqında deyirlər: "Böyük xaraktera malik belə insanlar öz əməlləri, fəaliyyətləri ilə böyük məqsədlərə çatır, obyektiv tələblərə uyğun, ağıllı şəkildə əsaslandırılmış və sosial əhəmiyyətli idealları əldə edir və başqaları üçün mayaka çevrilirlər".

Ulu öndərin ən ali məqsədi, böyük amalı heç şübhəsiz müstəqil, azad və firavan Azərbaycan dövlətini qurmaq, milli-mənəvi dəyərləri qorumaq olmuşdur. Bu məqsəd və amal bütün həyatı boyu onu mübarizəyə, çevik siyasi gedişlərə məcbur etmişdir. Bu gün şəxsiyyəti və fəaliyyəti dövlətimizin atributu, simvolu səviyyəsinə qalxmış Ulu öndərin irsi - vətənə, xalqa sədaqətlə xidmət etmək, mənəvi saflığımızı qayğısına qalmaq, müstəqilliyimizi göz bəbəyi kimi qorumaq və bu yolda canını belə əsirgəməmək kimi müqəddəs dəyərləri təkcə siyasi elita üçün yox, bütün vətəndaşlarımız üçün həyat məktəbidir. Bu dahi insan harada olur-olsun, əzmkarlığı, dərin düşüncəsi, məntiqi və polad iradəsi sayəsində saysız-hesabsız uğurlara imza atmışdır.

Keçən əsrin 70 - ci illərində məhz Ulu öndər fiziki və mənəvi terrora məruz qalan Azərbaycan milli təfəkkürünü qoruyub saxlaya bilmişdir-onun sovetlərin siyasi iyerarxiyasında rəhbərliyə gəlməsi ilə milli özünüdərk hissi gücləndi və bütün ideoloji maneələri dəf edərək müstəqil düşüncəyə yol açdı-bu da xalqın milli dövlət yaratmaq arzusunun yeni işartıları idi. Həmin illərdə Azərbaycanı bütün İttifaqda tanıtmaq uğurunda çalışan bu dahi insan tez-tez Moskvada, Leninqradda, digər iri şəhərlərdə Azərbaycan mədəniyyəti ongünlüyü keçirir, yazıçıların, şairlərin, sənət adamlarının yubleylərini təşkil edirdi. Ulu öndər Sovetlər dönəmində böyük təzyiqlərlə, təqiblərlə, ciddi nəzarətlə üzləşsə də, riskdən çəkinməyərək əzmkar fəaliyyəti ilə xalqda tarixi keçmişi, milli kimliyi, dili, mədəniyyəti, milli adət - ənənələri və düşüncə sistemi barədə dolğun təsəvvürlər formalaşdıra bildi. Onun fəaliyyətinin ən sanballı göstəricisi də məhz milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsinin real siyasi amilə çevrilməsi oldu. Bu dahi şəxsiyyətin milli - mənəvi dəyərlər məsələsində irəli sürdüyü prinsiplər, həmin problemin həlli ilə bağlı müəyyənləşdirdiyi aydın xətt, atdığı addımlar, təəssüf ki, bəzən əsl mahiyyəti üzrə şərh olunmur və elmi yanaşmalarda müəyyən yanlışlıqlara yol verilir.

Ardı Səh. 11

# Milli-mənəvi dəyərlərimizin mayakı...

Əvvəli Səh. 10

Ümummilli liderin bu sahədə xidmətlərinin, sadəcə olaraq, Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə, elminə, təhsilinə, səhiyyəsinə yüksək qayğı kimi səciyyələndirilməsi bu işlərin gerçək miqyası üçün kifayət etmir. Çünki görülən işlər, sadəcə, qayğı olmaqla məhdudlaşa bilməz. Bütün bunlar ulularımızdan bizə gəlib çatan müqəddəs irsin göz bəbəyi tək qorunaraq gələcək nəsillərə əmanət edilməsi, Azərbaycan şüurunun, mentalitetinin, əxlaqının bütün dünyada təbliği, qəbul olunması üçün atılan düşünülmüş, məqsədyönlü addımlardır.

Tarixdə xalqına, onun maarifinə xidmət edən rəhbərlər az olmamışdır, amma onların milli dəyərlərdə təcəssüm tapmasına nədənsə nadir hallarda təsadüf olunur. Ulu öndər məhz belə rəhbər və dövlət xadimi idi. Milli sözünün ehtiyatla işlədildiyi sovet dövründə də, Naxçıvanda yaşayanda da, müstəqillik dövründə də dahi rəhbər ən Böyük Azərbaycanlı olduğunu parlaq təcəssüm etdirən sadə və eyni zamanda, zəngin bir sima idi. Ulu öndərin ana dilimizdə parlaq və sərrast nitqi bu dahi insanı əbədi olaraq millilik rəmzi kimi anmağımız üçün kifayətdir. Ümummilli liderin natiqlik irsi xüsusilə müqəddəsdir-onun nitqinin xəlqiliyi azərbaycançılığın ən parlaq təcəssümü idi. Bu gün təsəvvür etmək çətindir ki, sərbəst işlənən doğma ana dilimiz bir vaxtlar öz varlığını yaşatmaq üçün mübarizələr aparırdı-həmin mübarizələrin tarixində Ulu öndərin danılmaz rolu olmuşdur.

Ümummilli lider ana dilimizin azadlığı uğrunda iki cəbhədə çalışırdı-birinci xətt bu insanın özünün ana dilində danışması, ikinci isə qanunverici və rəsmi yollarla dilimizin statusunun artırılması xətti idi. O zamanlar belə bir mübarizəyə qoşulmaq böyük cəsarətin, qətiyyətin və ən əsası isə Vətənə, millətə, onun milli sərvətinə sonsuz məhəbbətin nəticəsi idi. Ulu öndərin ana dilində ilk nitqləri tarixi məna kəsb edirdi-onun hakimiyyətə gəlişi ilə başlanan millləşmə prosesi məhz bu nitqlərin təsiri ilə başladı. Yad dildə danışan dövlət milli ola bilməz-ona görə Ulu öndərin nitqləri onun rəhbərlik etdiyi hakimiyyətdə də doğmalıq hissləri yaradırdı. Yazıçı və sənət adamları ilə görüşəndə Ulu öndər yeni bir elmi - ədəbi üslubda danışmağa başladı. Həm də parlaq şəkildə, ana dilinin söz imkanlarının bütün qatlarına, çalarlarına zərgərcəsinə bələdliklə danışmağa başladı. Ümummilli liderin gözəl nitqi yazıçıları, ədəbiyyatçı alimləri, illərlə mühazirələr oxuyan professorları da heyran qoyurdu. Böyük rəhbər parlaq nitq qabiliyyəti onun genetik yaddaşından gəlirdi-o bu dilin parlaq təcəssümü olan bir mühitdə, sadə azərbaycanlı ailəsində formalaşmışdır.

Ümummilli liderin irsinin ayrılmaz bir qanadı onun tariximizə və tarix elmimizə qayğısı ilə bağlıdır. Milli keçmişimizi dərindən mənimsəmiş Ulu öndər milli dövlət üçün tarixin və tarix elminin fundamental əhəmiyyətini gözəl bilirdi.

Ümummilli liderin mənəvi irsinin və milli tarix konsepsiyasının mühüm bir istiqaməti Azərbaycan SSR-nin tarixinin milli xəttini görməsi, ardıcıl surətdə üzə çıxarması və təbliğ etməsi idi. Ulu öndər çox haqlı olaraq hesab edirdi ki, bütün səhv və əyintilərlə yanaşı, 70 illik sovet hökuməti zamanında xalqımız misilsiz tərəqqi yolu keçib və başlıcası isə, müstəqillik üçün iqtisadi və dövləti əsaslar yaratmışdır-həmin əsaslar olmadan indiki müstəqil dövlətimizin varlığı da mümkün deyildir.

Azərbaycana rəhbərlik etdiyi vaxtlarda Ulu öndər xalqımızın milli - mənəvi dəyərlərini sevərək öz varlığında yaşatmış, əməllərində bu dəyərləri müqəddəs, toxunulmaz bir xəzinə kimi qoruyub, onun əbədiyaşarlığını təmin etmişdir. Ümummilli lider "ən böyük şəxsiyyətlər özlərindən çox mənsub olduqları cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını həsr edən insanlardır" - demişdir.

Ümummilli liderin baxışlar sistemində din yalnız mənəvi dünyanın pəncərəsindən boylanır. Ulu öndər dinin siyasi alətə çevrilməsinə, insanların müqəddəs inanclarının siyasi proseslərin təsiri ilə adiləşib dəyərini itirməsinə heç vaxt imkan verməmişdi-o bu inancları bütün siyasi proseslərin fövqündə saxlamış və qorumuşdur. Onun tez - tez dindarlarla görüşməsi, dini bayramlarda məscidlərə getməsi, dindarların mənəvi ehtiyaclarına həssaslıqla yanaşması xalq arasında həmişə böyük razılıq hissi ilə qarşılanmışdır. Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra respublikamızda dini bayramların, o cümlədən Qurban bayramının rəsmi şəkildə qeyd olunmasını vurğulayan Ulu öndər bu bayramın bəşəri - mənəvi dəyərlərindən insanların faydalanmasının əhəmiyyətindən bəhs edərək demişdir: "Müsəlmanların böyük bir təntənə ilə həmrəylik və qardaşlıq rəmzi kimi qeyd etdikləri Qurban bayramı insanlar üçün yüksək bəşəri - mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır. İslamın insanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinə həmişə sadiq qalmış Azərbaycan xalqı tarixinin çətin dövrlərində belə, Qurban bayramını özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir".

Ölkəmiz müsəlman dünyasının ayrılmaz hissəsi olaraq islam mədəniyyətinin inkişafına tarixən öz töhfələrini vermişdir-islam dini xalqımızın həm dini əqidəsi, həm də milli - mənəvi dəyərləri kimi insanların həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Xalqımızın mənəvi inkişafında gənclərimizin əxlaqının formalaşmasında, azərbaycanlıların ailə institutunun möhkəm təmələ söykənməsində islamın rolu əvəzsizdir. İslam bütün müsəlman dünyası tərəfindən qəbul edilə biləcək vahid ilahiyyat konsepsiyası yaratmışdır. İslamın həyat qabiliyyəti dini sistem çərçivəsində müxtəlif nöqteyi - nəzərlərin yanaşı mövcudluğuna imkan verməsi ilə təmin olunur. Ulu öndər milli - mənəvi dəyərlərin xalqın, vətəndaşların milli birliyinə xidmət etdiyini həmişə vurğulamış, xüsusən dini bayramların milli həmrəyliyin təmin edilməsində mühüm rol oynadığını xüsusi qeyd etmişdir. Ulu öndərin səyi nəticəsində milli - mənəvi dəyərlərin qorunub saxlanılması, zənginləşməsi və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi dövlətin prioritet vəzifələrindən birinə çevrilmişdir.

Azərbaycan xalqının milli həmrəyliyinin bərqərar olmasında dini bayramlar xüsusi əhəmiyyət kəsb edirdi. Ölkəmiz müstəqillik əldə etdikdən sonra xalqımızın dini bayramları dövlət səviyyəsində qeyd olunmağa başlanmış və milli-mənəvi dəyərlərimizin qorunması işinə dövlət tərəfindən ciddi qayğı göstərilməsi həyata keçirilmişdir. Azərbaycan Prezidentinin andiçmə mərasimində respublika Konstitusiyası ilə yanaşı, müqəddəs Qurani - Kərimə də əl basaraq dövlətə, xalqa sədaqətlə xidmət edəcəyinə, milli - mənəvi və dini dəyərlərimizi qoruyacağına and içməsi dediklərimizə əyani sübutdur.

Ümummilli lider ilk gündən Azərbaycan xalqının milli - mənəvi dəyərlərinə, adət - ənənələrinə sadiq olduğunu öz fəaliyyəti, əməlləri və bu sahədə həyata keçirdiyi tədbirlər vasitəsilə sübut etmişdir-onun təşəbbüsü ilə xalqımızın milli - mənəvi dəyərlərinin, onun adət - ənənələrinin dirçəldilməsi, xüsusən İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi Ulu öndərin bir daha xalqa mənən bağlılığını və islami dəyərlərə sədaqətini göstərən parlaq misallardır.

Xalqımızın milli-mənəvi dəyərlərinin təbliğində və gənclərimizin bu ruhda tərbiyə olunmasında, həmçinin cəmiyyətin bu istiqamətdə səfərbər edilməsində Ümummilli liderin xidmətlərin əvəzsizdir. Azərbaycanın gələcək inkişaf strategiyasını müəyyənləşdirən Ulu öndər bütün cəmiyyəti səfərbər edərək onu düzgün yola istiqamətləndirdi. Biz müasir Azərbaycan dövlətinin inkişafında yeni mərhələ yaşayırıq, iqtisadi sahədə keçid dövrü artıq başa çatmışdır, ölkəmizdə inkişafın yüksək sürəti təmin edilmişdir-indi möhtəşəm və məsuliyyətli vəzifələrin öhdəsindən gəlmək üçün dövlətimizin kifayət qədər potensialı və təcrübəsi vardır.

Milli - mənəvi dəyərlərin qorunması indi ən ümdə vəzifələrdən biridir. Ulu öndər qeyd edirdi ki, milli dəyərlərin qorunub saxlanılmasından danışarkən biz heç də onların konservasiyasını nəzərdə tutmuruq-biz daim irəliyə, gələcəyə baxmalı, insani, maddi və mənəvi resurslarımızı səfərbər etməliyik. Millətin tarixi keçmişi onun gələcəyə uğurla addımlaması üçün həm etibarlı zəmin, həm də ibrət dərsidir. Yeni inkişaf yolunu müəyyən edən strategiyada, sözsüz ki, varisliklə novatorluq vəhdət təşkil etməlidir. Ümummilli lider həmişə həm müdrik el ağsaqqalı, həm də təcrübəli dövlət başçısı kimi cəmiyyətimizin mənəvi əsaslarını təşkil edən ümdə prinsiplər və onların qorunub inkişaf etdirilməsi istiqamətləri barədə çox dəyərli fikirlərini xalqla bölüşdürmüşdür. Belə bir ünsiyyətin fərqləndirici əlaməti onun rəsmiyyətdən uzaqlığı, ulu öndərin cəmiyyətin sadə üzvləri ilə daim təmasda olması, həmişə xalqa bağlılığı ilə şərtlənirdi. Dahi şəxsiyyət öyrədirdi ki, sərvət toplamaq, dünyanın ən ləzzətli təamlarını nuş etmək, son dəbdə geyinmək, bütövlükdə müəyyən maddi sərvətlərə malik olmaq mümkündür. Lakin hər bir insan və hər bir millət hər şeydən əvvəl öz xalqının mənəvi sərvətlərinə sahib çıxmalı, öz mədəniyyətini, adətənənəsini, mentalitetini və milli-mənəvi dəyərlərini qorumalıdır. Gələcək nəsillərə bəlkə də maddi sərvətlər və iqtisadi mirasdan daha çox mənəvi irs, milli mentalitet ərməğan edilməlidir. Ulu öndər demişdir: "Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir - birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli - mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval - ruhiyyədə tərbiyələndirməliyik".

Milli dövlətçiliyin konkret mənəvi dəyərlər sistemi əsasında vahid məqsədə yönəldilməsi, xalqın tarixi yaddaş və mənəvi irsinin mühafizəsinə xidmət edən irimiqyaslı fəaliyyətin həyata keçirilməsi, milli ruhlu nəslin yetişdirilməsi, zəngin daxili aləmə malik azərbaycanlı obrazının bütün dünyada tanıdılması üçün zəruri olan qüvvə və potensialın səfərbər olunması məhz Ümummilli liderin adı ilə bağlıdır. Ulu öndər ölkədə mütərəqqi islam dəyərlərinin inkişafına xüsusi diqqət yetirməklə yanaşı, başqa dinlərin inkişafına da tolerant mühitin yaradılmasını təmin etmiş, dini konfessiyalar arasında qarşılıqlı hörmətə söykənən münasibətlərin formalaşmasına çalışmış, milli - dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşa bu torpaq üçün milli yiyəlik hissi aşılamış, dini tolerantlığın polietnik mövcudluğunun qarantı kimi azərbaycançılıq ideologiyasını irəli sürərək onun praktik nəzəriyyəyə çevrilməsinə nail olmuşdur. Bir sözlə, dilimizin, dinimizin, tariximizin, incəsənətimizin şərəfli səhifələrinin şəriksiz müəllifi olan Ulu öndər bu mənəvi dəyərlərə ömrünün sonuna qədər sadiq qalmışdır. Onun birinci hakimiyyət dövrü kommunist ideologiyasının tüğyan etdiyi, imperiya ambisiyasının güclü olduğu dövrə təsadüf edir-buna baxmayaraq Ulu öndər milli-mənəvi dəyərlərin qorunması sahəsində olduqca nəhəng işlər görmüşdür. Həmin dövrdə ən həssas məsələlərdən biri də din, dini ayinlərə, dini xarakterli bayramların keçirilməsinə münasibət problemi idi. On yeddi ildən çox müddət ərzində Nazirlər Soveti yanında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə rəhbərlik etmiş professor Abdulla Əhədovun dediklərindən: "Azərbaycan KP MK-nın geniş tərkibdə növbəti plenumu idi, qəflətən iclasa sədrlik edən Mirzə İbrahimov üzünü mənə tərəf tutub: "bu cavan oğlan deyəsən yolunu azıb, partiyanın xəttinin əleyhinə gedir, son vaxtlar Bakı kəndlərində və regionlarda açıq şəkildə dini təbliğat aparılır, məscidlər açılır, ən pisi bütün bunlar onun dəstəyi ilə həyata keçirilir"-dedi. O sözünü tamamlayan kimi Heydər Əliyev mənə müraciət edərək çox kəskin danışdı, bu işlərin yolverilməz olduğunu bildirdi-ayaq üstə qurumuşdum, nitqim tutulmuşdu, oturanda yanımda oturan yoldaşlar artıq yerlərini dəyişmişdirlər, hamı fikirləşirdi ki, bu mənim plenumda son iştirakımdır, fasilədə siqaret yandırmaq istəsəm də cibimdəki kibriti tapa bilmədim və heç kim mənim siqaretimi yandırmadı. Beynimdə dolaşan "Axı mən onun icazəsi olmadan heç nə etməmişdim, açılan hər bir məscidin xeyir-duasını almışdım"-fikrinə aydınlıq gətirə bilmirdim. Səhəri gün işlə getməyə qalxanda başım fırlanıb yıxıldım, təcili yardım gəldi-diabet, təzyiq-həmin plenumdan diabet mənə yadigar qaldı. Axşam o özü mənə zəng etdi, "cavan oğlan niyə işə çıxmamısan, sabah işə çıx, hər halda mən plenumda, həm də Moskvadan olan qonaqların yanında başqa cür danışa bilməzdim".

Ardı Səh. 12

# Milli-mənəvi dəyərlərimizin mayakı...

Əvvəli Səh. 11

Bu gün özünü mənəvi dəyərlərin carçısı kimi göstərmək istəyənlər çoxdur, ancaq o dövrdə, imperiyanın güclü olduğu vaxtda bu işi hər adam görə bilməzdi-bunu yalnız o böyük şəxsiyyət edə bilərdi”.

Müstəqilliyin ilk illərində vətəndaş tərbiyəsi ideoloji və tarixi əhəmiyyət daşıyan bir problem idi. Bu vacib vəzifənin həyata keçirilməsi üçün Azərbaycan vətəndaşının ideya - siyasi düşüncəsini formalaşdırmaq lazım gəlirdi. Həmin istiqamətdə xeyli iş görmüş dövlət rəhbəri ”Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Bu gün mənəvi tərbiyə keçmiş illərdən daha çox lazımdır”, - deyirdi-o həm də öz şəxsi təcrübəsində gördüklərindən bu qənaətə gəlirdi. Ulu öndərin tükənməz enerjisinə, dərin zəkasına, müdrik ağlına, dünya şöhrətinə, sarsılmaz nüfuzuna qısqanclıqla yanaşanlara, haqsız hücumlara, böhtançılara, paxıllara öz möhtəşəm ağlı ilə cavab verirdi: ”Paxıllıq, şər, böhtan xam at kimidir - sahibini heç bir zaman mənzil başına sağ - salamat çatdıra bilməz”, - deyirdi.

Ümummilli lider xalqın milli-mənəvi dəyərlər sistemində ailənin rolunu daim müstəsna dəyərləndirirdi. Böyük strateq ailəni, eyni zamanda, ülvi və müqəddəs dəyərlərin tərənnümçüsü kimi qiymətləndirir, xalqın mənəvi kamillik səviyyəsinin təmin olunmasında, genefondunun saflığının qorunmasında əhəmiyyətini daim önə çəkirdi. Mübaliğəsiz deyə bilərik ki, bu gün Azərbaycanda minlərlə yeni qurulan ailənin müqəddəs örnək kimi istinad edəcəyi qürur və fəxarət ünvanı var. Ulu öndərin möhkəm mənəvi təməl və niyyətlər, ülvi arzular üzərində yaratdığı ailə modeli hər bir azərbaycanlıda böyük rəğbət hissi doğurur. Bu ailənin ən böyük xoşbəxtliyi onun hər bir üzvünün cəmiyyət üçün gərəkli, faydalı şəxsiyyət olmasında, xalqa layiqli xidmətdə göstərməsindədir.

Ulu öndər türkdilli xalqların öz milli tarixlərini, doğma dillərini, ədəbiyyatlarını, mədəniyyət və incəsənətini, adət - ənənələrini qorumağı və onları zənginləşdirməyi həmişə dəstəkləmişdir. Bu baxımdan o türkdilli ölkələrin mədəni əlaqələrini həyata keçirən Türksoy təşkilatının fəaliyyətinin genişlənməsinə və Azərbaycanın bu təşkilatın işində fəallıq göstərməsinə həmişə xüsusi diqqət yetirmişdir. Hazırda Azərbaycanın türkdilli ölkələrlə mədəni əlaqələrində Türksoy təşkilatı əsas rol oynamaqdadır. Ümummilli lider yalnız Azərbaycan xalqının deyil, bütün türk dünyasının milli lideri, zəmanənin böyük siyasi xadimdir-o hər zaman türklərin qəlbində yaşayacaq əfsanədir. Ulu öndər 1992 - ci ildən başlayaraq türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbimədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində gərgin fəaliyyət göstərmişdir. O, bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanmış, türk dünyasının qüdrətli bir insanı, bütün türk dünyasında Atatürk kimi özünəməxsus yeri olan böyük rəhbər kimi ölməzlik qazanmışdır.

Ümummilli lider zəkasının ziyası ilə ölkəmizi bürümüş zülməti yox edərək, aydınlığa çıxarmışdır. Azərbaycanın müstəqillik yolu ilə inamla addımlaması, uğurlarla zənginləşməsi məhz onun şəxsiyyət bütövlüyünün, əqidəcə saflığının nəticəsi idi. Azərbaycanın taleyüklü problemlərinin həllində, müqəddəs milli vəzifələrin uğurla həyata keçirilməsində, beynəlxalq ictimai rəydə, Vətənimizin daha böyük uğurlar qazanmasında bu dahi insanın misilsiz xidmətləri təsdiqlənmiş və qəbul edilmişdir. O, Azərbaycan xalqının dahilik rəmzi olmuş, dövlətçilik tarixində ”qalib lider” obrazını yaratmışdır.

Ümummilli lider milli - mənəvi dəyərlərə sadiqliyini bütün fəaliyyəti boyu qoruyub saxlamış, dövlət idarəçiliyində bu meyarlara mühüm önəm vermişdir: ”Biz öz milli - mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli - mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli-mənəvi dəyərləri olmauap millət həqiqi xalq ola bilməz. Azərbaycan xalqının milli - mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız Qurani - Kərimdə öz əksini tapmışdır. Ancaq bununla belə, Azərbaycanın təfəkkürlü insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli - mənəvi dəyərlərini yaradıbdır. Biz bunların hamısı ilə fəxr etməliyik”.

”Həqiqi dövlət xadimlərinin üstün keyfiyyəti ondadır ki, hər bir zərurətdən fayda götürməyi bacarsın, hətta şəraitin ən qorxunc axarını belə dövlətin xeyrinə dəyişə bilsin”-Ulu öndər rəhbər olduğu bütün işlərində V.Hüqonun dediyi bu sözlərə sadiq qalmış, bunu bacarmış və həyata keçirmişdir.Tarixin müxtəlif mərhələlərinə nəzər salsaq, milyonların içərisində öz uzaqgörənliyi, qətiyyəti və iradəsi ilə seçilən liderlərin və fenomenal şəxsiyyətlərin baş verən hadisələrə təsir imkanları, bu hadisələrin istiqamətini düzgün məcraya yönəltmək bacarığı səhifə - səhifə göz önündə canlanar. Tale həm də bəzən xalqları, ölkələri sərt sınaqlara çəkir, üzücü müharibələr, sosial kataklizmlər, tənəzzül və böhran minilliklərin nailiyyətlərini təhlükə altına alır, tarixi tərəqqi məhvə sürüklənir. Belə hallarda cəmiyyət bəşəri bir xilaskarın gəlişinə ehtiyac duyur. Həmin şəxsiyyət öz xilaskarlıq missiyasını yerinə yetirdikdən sonra tarixdə əbədi iz qoyur. Ümummilli lider də Azərbaycan xalqının tarixinə və taleyinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri - adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür.

Ulu öndər həmişə deyirdi ki, milli ruhu və milli varlığı müdafiə, eyni zamanda mühafizə etməyin, milli maraqları gerçəkləşdirməyin ən uğurlu forması müstəqil milli dövlətdir. Odur ki, milli - mənəvi dəyərlərlərlə yanaşı, milli dövlətçiliyin də qorunmasını, inkişafını və dünyaya inteqrasiyasını siyasi fəaliyyətinin əsas hədəfləri hesab etmiş, özünün mənalı ömrünü bütünlüklə bu məqsədlərə həsr etmişdir. Ulu öndərin dühasının xalqa, milli maraqlara xidməti öz zirvəsinə müasir Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində və müstəqilliyinin əbədiləşdirilməsində çatmışdır. ABŞ - ın dövlət xadimi, dünya şöhrətli politoloq Zbiqnev Bjezinski demişdir: ”Heydər Əliyev XX əsrin ən görkəmli siyasətçilərindən biridir. Siyasi hədəfləri düzgün seçməsi və böyük ruh yüksəkliyi ilə rəhbərlik etməsi Heydər Əliyevi tarixi şəxsiyyətlərdən Corc Vaşinqton və Avraam Linkolnla, müasir dövlət xadimlərindən isə Çörçill, Ruzvelt və Şarl de Qolla bir sıraya çıxarır. Onun uzaqgörənliyi və fitri qabiliyyəti, fəhmi və qətiyyəti olmasaydı, Azərbaycan dövlətini yaratmaq da mümkün olmayacaqdır” .

Böyük öndər Azərbaycanın tərəqqi və inkişaf yolunu bir dövlət olaraq dahiliklə müəyyənləşdirmiş, milli - mənəvi dəyərlərimizin, müstəqil dövlətçiliyimizin konseptual əsaslarını işləyib hazırlamış, ehkamlaşmış köhnə stereotiplər çərçivəsini dağıdaraq milli ruhun, milli ideologiyanın yüksəlişinə təkan vermişdir.

Müstəqillik əldə edən ölkəmizdə hüquqi islahatların həyata keçirilməsi vacib şərt kimi qarşıda dayanırdı, bunun üçün, hər şeydən əvvəl, yeni konsepsiya işlənib hazırlanmalı idi-bu konsepsiya azad cəmiyyətin formalaşmasına, demokratik, hüquqi dövlət quruculuğuna, qanunun aliliyinə və bununla da insan hüquqları və azadlıqlarının müdafiəsinə təminat yaratmalı idi. Ümummilli liderin yenidən hakimiyyətə gəlişi ilə ölkə həm xaosdan, həm də dövlətçiliyini itirmək təhlükəsindən xilas oldu-bu qayıdışla Azərbaycanın beynəlxalq arenada özünəlayiq yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində qlobal işlərə start verildi.

Dünyəvi qloballaşma və modernləşmə prosesinin geniş vüsət aldığı bir dövrdə ümumi bəşəri inkişaf dinamikasından kənarda qalmaq olmazdı və bizim idealımız və məqsədimiz tarixi meyillərə zidd gedə bilməz. Dünyadan təcrid olunmaq milli təhlükəsizliyə zəmanət vermir-indiki dövrün qeyri - adiliyi və ondan irəli gələn tələblərlə hesablaşmaq lazım gəlirdi. Ulu öndər müstəqilliyimizin, Azərbaycan dövlətçiliyinin təhlükə mənbələrini və ona qarşı mübarizə metodlarını müasirlərindən daha aydın görürdü-o bütün fəaliyyəti boyu ideoloji mübarizə cəbhəsində bir anlıq fasiləyə, istirahətə yol vermədən daim döyüş və müdafiə mövqeyində sərvaxt dayanmışdır.

Ümummilli lider müdrik dövlət rəhbəri olmaqla yanaşı, həm də mütərəqqi azərbaycanlı dəyərlərini parlaq şəxsiyyətində yaşadan, cəmiyyət üçün örnək sayılan ailə başçısı idi. Böyük şəxsiyyət kimi yetişən, xoşbəxtliyi əqli kamillikdə, təmizlikdə və halal zəhmətdə axtaran, ailənin saf sevgi üzərində qurulması vacibliyini erkən yaşlarından dərk edən dahi şəxsiyyət cəmiyyətdə öz layiqli yerini tutmuş, saf təməl üzərində qurduğu ailənin bütün qayğılarını öz üzərinə çəkmişdir.

Bu gün Prezident İlham Əliyevi həm də Azərbaycanın milli - mənəvi dəyərlərinin ən qüdrətli mühafizəçisi kimi görürük. Prezident İlham Əliyevin konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli dövlətçilikdir. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Dövlətçilik hisslərinə malik olmadan xalq milli dövlətini inkişaf etdirə bilməz.

Bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst - xətti, öz dövlətçilik siması, öz inkişaf yolu vardır. Azərbaycanda əsası Ulu öndər tərəfindən qoyulmuş vahid inkişaf strategiyası, siyasi - iqtisadi və mədəni - mənəvi təkamül konsepsiyası, vahid milli ideologiya formalaşmaqdadır. Dövlətimizin öz milli maraqlarına söykənən beynəlxalq siyasi kursu da, demokratikləşdirmə, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti də göz qabağındadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli liderin siyasi kursunu, sadəcə, qoruyub - saxlamaqla kifayətlənməyərək, onu yeni şəraitin tələblərinə uyğun surətdə, yaradıcılıqla inkişaf etdirməkdədir.

Azərbaycanın müasir siyasi tarixinin və çağdaş həyatının 35 ili Ulu öndərlə, onun çoxtərəfli və genişmiqyaslı zəngin əməli - nəzəri və siyasi fəaliyyəti ilə bağlı olmuşdur. Bu dövrdə Ulu öndərin rəhbərliyi altında Azərbaycan xalqı tarixi baxımdan bir əsrdən digər əsrə, bir ictimai - siyasi quruluşdan digərinə, asılılıqdan müstəqilliyə, bir ideoloji müstəvidən digər ideoloji mühitə qədəm qoymuşdur. Bu dövrə nəzər salarkən ölkəmizin nə qədər dəyişib inkişaf etdiyinin real mənzərəsini görürsən. Bu illər ərzində Azərbaycan xalqı, sözün həqiqi mənasında, misilsiz inkişaf yolu keçmişdir. Ən başlıcası, demokratik, müstəqil, dünyəvi və hüquqi Azərbaycan dövləti bərqərar olmuşdur. Bu, xalqımızın həm iqtisadi, həm siyasi, həm də mənəvi sərvətidir. Bu tarixi qələbəni lazımınca qiymətləndirmək, qorumaq, möhkəmlətmək və ona dönməz xarakter vermək Azərbaycan milli ideologiyasının mahiyyət və məzmununu təşkil edir. Danılmaz faktdır ki, müstəqil Azərbaycan dövlətçiliyinin təməlini qoymuş Ümummilli lider həm də müstəqillik ideologiyasının banisi və müəllifidir. Ulu öndər mahir dövlətşünas və rəhbər kimi xalqı üçün nə mümkündürsə onu etmiş və həm də özünün davamçsı və siyasi varisi üçün zəngin ideya irsi və böyük mənəvi - ideoloji kapital qoymuşdur. Bu zəngin nəzəri - siyasi irsin tərkibində milli müstəqillik, müasirlik və azərbaycançılıq ideologiyası mühüm yer tutur. Ulu öndər bu haqda demişdir: ” Bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində olmağa qoymamışam”. Azərbaycanın bugünkü və gələcək nəsillərinin Ulu öndərin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq, milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Bu gün xalqımız Ümummilli liderin siyasi varisi - yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyət kimi dünya siyasətində özünəməxsus yer tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir. Tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev dövlətimiz qarşısında taleyüklü məsələləri xalqımızın dəstəyi ilə başa çatdıracaq, Ulu öndərin müstəqil dövlətçilik irsini öz quruculuq fəaliyyəti ilə daha da zənginləşdirəcəkdir. Ümummilli lider tarixin ən çətin, məsuliyyətli dövrlərində Azərbaycanın milli mövcudluğunu yaşatmaq kimi ağır yükün altına girən fenomenal şəxsiyyət olduğu danılmazdır.

# Kirill Poluxin: ”Bakı Şərq və Qərb arxitekturasının harmoniyasıdır”

## Tanınmış aktyor: "Bu filmdə Heydər Əliyevin dostlarından birini canlandırırdım"





Avqustun 21-də TNT kanalında ”Mühafizəçilər” (Teloxraniteli) serialının televiziya premyerası başlayır. Süjet dünya çempionatına uçmazdan əvvəl Moskva qaydasız döyüş turnirində əlavə pul qazanmağa qərar verən Çelyabinskdən olan üç boksçu ətrafında cərəyan edir. İdman rejiminin pozulmasından xəbər tutan baş məşqçi onları yığmadan kənarlaşdırır. Bu hadisədən sonra uşaqlar evə qayıtmazdan əvvəl bir restoranda nahar edirlər, burada məşhur bir moskvalı vəkil tərəfindən iş yeməyi verilir. Qəhrəmanların günahı olmadan, vəkilin mühafizəçisi ilə mübahisədən münaqişə başlayır. Uşaqlar peşəkar boksçunun öz formasının zirvəsində nəyə qadir olduğunu nümayiş etdirirlər. Bu, vəkildə qalıcı təəssürat yaradır. Qəhrəmanlar polisə düşür, onları həbs gözləyir. Vəkil bir sövdələşmə təklif edir: ya həbsxana, ya da onun şəxsi mühafizəçisi olmaq. Qəhrəmanlar vəkilin şərtlərini qəbul etməyə və idman kostyumlarını klassik geyimə dəyişməyə məcbur olurlar.



Bu barədə ”Moskva-Baku” portalına filmdə antaqonistlərdən birini canlandıran aktyor Kirill Poluxin məlumat verib. O, Bakıda çəkilişlərini də xatırlayıb və Azərbaycanda onu çox təsirləndirən hadisələri bölüşüb. Aktyorun müsahibəsini oxucularımıza təqdim edirik.

***- Kirill Alekseyeviç, avqustun 21-də sizin iştirakınızla "Mühafizəçilər" serialının televiziya premyerası keçiriləcək. Zəhmət olmasa xarakteriniz və serial haqqında bizə məlumat verin...***

- Orada kiçik rolum var, antaqonistlərdən birini oynayıram. Bütün təfərrüatları açıqlamayacağam, qoy tamaşaçılar özləri görsünlər, süjet olduqca gülməlidir, məncə, bunu bəyənməlisiniz. Süjet xətti Çelyabinskdən olan 3 idmançı haqqındadır, onlar dünya çempionatını tərk etdikdən sonra şəraitin iradəsi ilə yüksək səviyyəli işləri həll edən bir hüquqşünasla işləmək məcburiyyətində qaldılar, hansı ki, o öz həyatı üçün qorxur. Atışma, təqiblər, hüquqşünas üçün qeyri-adi tapşırıqlar olacaq, ümumiyyətlə, maraqlı olacaq.

***- "İnsanları xilas edəcəm" adlı Azərbaycan filmində iştirak etmisiniz, bu haqda bizə məlumat verin...***

- Bəli, doğrudan da, 2016-cı ildə ”İnsanları xilas edəcəm” adlı film çəkmişdik. Rejissor Vaqif Mustafayevin rejissorluğu ilə Azərbaycanın lideri Heydər Əliyev haqqında film. Bu çəkilişləri böyük məmnuniyyətlə xatırlayıram, İçərişəhərdə gəzməyi çox xoşlayırdım. Məni gözəlliyi ilə heyran etdi, rəvan, müasir arxitekturaya çevrilən köhnə şəhər, qeyri-adi hündürmərtəbəli binalar, bütün bunlar harmonik şəkildə birləşərək Qərblə Şərq arasında olduğunuz təəssüratını yaratdı. Mən də sahil boyu gəzməyi çox sevirdim, ”Eurovision 2012” mahnı müsabiqəsi üçün çox qısa müddətdə tikilmiş ”Baku Crystal Hall”un (Bakıdakı idman-konsert kompleksi - red.) gözəlliyini gördüm və heyran oldum. Film kifayət qədər uzun müddət çəkildi, altı ay müddətində ora getdim. Filmdə Heydər Əliyevin dostlarından birini canlandırdım. Çəkilişlərdə həm rus, həm də azərbaycanlı aktyorlar iştirak ediblər. Bakıda, çəkiliş meydançasında keçirdiyim o günləri məhəbbətlə xatırlayıram. Bakılılar məni qonaqpərvərliyi ilə heyran etdi, gənclərin rus dilini necə bilməsi və bizi necə tanıması məni xüsusilə təəccübləndirdi. Bu, mənim üçün xoş sürpriz oldu.

***- Azərbaycan sizin üçün nədir?***

- Azərbaycan odlar diyarıdır- Azərbaycan deyiləndə ağlıma ilk bu assosiasiya gəlir. Bəlkə bu, həm də oradakı yanan dağları (Yanardağ Azərbaycanda qədim zamanlardan bəri dağın yamacında yanan təbii əbədi oddur - red.) xüsusi bəyənməyim və xatırlamağımla bağlıdır. Bizə bu alovu necə söndürməyə çalışdıqları barədə inanılmaz hekayələr və əfsanələr danışdılar, lakin o, hələ də sönməyib və bu qədər uzun müddətdir yanır. Mənə çox təsir etdi və çox yaxşı xatırlayıram.

***Tərcümə - Elçin***



**Mətanət MƏMMƏDOVA**

# Tüstülənən sağlamlıq

**Bu gün siqaretin bahalaşması ilə əlaqədar yayılan məlumata əsasən, onlardan bəzilərinin 10, bəzilərinin isə 20 qəpik bahalaşması fonunda söyləmək olar ki, Ulu Yaradan hər kəsi sağlam yaradıb dünyaya bəxş edir. Bəs biz necə, bu sağlamlığı ömrümüz boyu qoruyub saxlaya bilirikmi? Əlbəttə, xeyr. Yaradılış formamıza uyğun olmayan qidalarla qidalanırıq, orqanizmimiz üçün hesablanmayan vərdişlərə başlayırıq. Lakin əsla bunları ”olmaz” deyə qəbul etmirik. Düşünürük ki, biz ən doğrusunu edirik, bunlar bax, elə belə də olmalıdır.**

Çox sevdiyimiz bir tamaşada çox sevdiyimiz aktyorun ifasında səsləndirilən mahnının ”papirosum yana-yana, od saldı şirin cana” sözləri hər dəfə bizi nə qədər güldürürsə, siqaret çəkənlərin içinə düşən od o qədər narahat edir. O od ki, bəzən dəb xətrinə, bəzən böyüdüyümüzü göstərmək, bəzən alışqanlıq, bəzən dostdan geri qalmamaq, bəzən özünü kişi hesab etmək, bəzən mühitin ”ərməğanı”, bəzən bir dəfə dadına baxmaqla içimizə düşür və ömürlük yol yoldaşımız olub bizi elə yandırır ki, bir də baxırıq ki, bir ovuc küldən başqa heç nəyimiz qalmayıb.

Siqaret çəkməyin zərərləri haqqında illərdir ki, bütün mətbuat orqanları, səhiyyə, həkimlər, ağsaqqallar bar-bar bağırsalar da, lakin nədənsə onların sözlərini dinləyən yoxdur. Görünür bu, elə bir alışqanlıqdır ki, ona nə ictimai qınaq təsir edir, nə maarifləndirmə kar salır, nə ağsaqqal sözü keçir, nə də həkim məsləhəti. Nəticə isə bu olur ki, dünyada hər il milyonlarla insan siqaret zəhərinin qurbanı olur.

Hesablamalara görə, tütünün törətdiyi xəstəliklər nəticəsində hazırda dünyada hər il 8 milyondan artıq insan ölür. Onların 1 milyonu ətrafa yayılan tütün tüstüsü ilə nəfəs alan passiv tütün çəkənlərdir.

XX əsrdə tütün epidemiyası bütün dünyada 100 milyon insanın həyatına son qoyduğu halda, XXI əsrdə tütündən 1 milyard insanın ölümü gözlənilir. Çünki tütün ağ ciyər və ürək-damar, həmçinin bronxial xərçəng, xroniki bronxit, emfizema və bir çox xəstəliklərin səbəbkarıdır.

Budur, siqaretin qiyməti yenə də bahalaşdı. Lakin gəlin görək bu, siqaret çəkənlərin sayına təsir edəcəkmi? Birincisi, hər gün bir qutu siqaret çəkənlər var ki, buna görə ya 10, ya da 20 qəpik artıq xərcləməli olacaqlar. Bu da ay ərzində 3-6 manat arasında dəyişir. Siqaret çəkələr 6-7 aydan bir olan bu artımı yəqin ki, nəzərə almırlar, düşünürlər ki, əşi, 10, 20 qəpik nədir ki? Siqaretdən əsla vaz keçmək olmaz. Qiyməti artsa da, nə etməli, almalıyıq...

Beləliklə də son iki ilin statistik hesabatında rəqəmlər bir qədər artıb-azalsa da, lakin elə bir fərqli rəqəm müşahidə olunmur. 15-19 və 65 yaşdan yuxarı bütün yaş qruplarında kifayət qədər siqaret çəkən var. Buradan da o qənaətə gəlmək olur ki, bu qədər maarifləndirmə, bu qədər mübarizə qarşısında hələ də insan qəflət yuxusundan oyanıb sağlamlığının qeydinə qalmaq fikrində deyil. Məlumata görə, Azərbaycanda hər il 15 min nəfər tütün və onun yaratdığı müxtəlif xəstəliklərdən dünyasını dəyişir.

Siqaret çəkən hər kəs tək özünü deyil, ailəsini, iş, yol yoldaşını, qonşusunu, qohumunu, dostunu, xüsusilə də övladını düşünməlidir. O zaman papirosunu yandıranda özünün də, onların da sağlamlığının tüstüləndiyini dərk edər. Və bəlkə bu an siqaretin zərəri də, qiyməti də onu yandıra...

# İnsan azadlıqlarının təmin olunması proritet istiqamətlərdəndir

## Məhkəmə-hüquq sistemində mühüm yeniliklər və dəyişikliklər insan hüquq və azadlıqlarının müdafiəsinə töhfələr verir

Azərbaycanda vətəndaş cəmiyyəti, hüquqi dövlət və demokratik siyasi quruluşun bərqərar olması üçün bir sıra vacib tədbirlər həyata keçirilib. 1991-ci il oktyabr ayının 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"yə və hamılıqla qəbul edilmiş başqa beynəlxalq hüquq sənədlərinə qoşulduğunu bəyan etmiş, onlarda nəzərdə tutulan bütün hüquq və azadlıqlara vətəndaşların cinsindən, irqindən və milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən, siyasi əqidəsindən və başqa hallardan asılı olmayaraq əməl edilməsini, bu hüquq və azadlıqların maneəsiz həyata keçirilməsinin təmin olunmasını öz öhdəsinə götürmüşdür. Ümummilli Liderimiz Heydər Əliyev 1993-cü ildə ikinci dəfə Azərbaycan rəhbərliyinə qayıdışı ilə müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur.

Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Ulu Öndər demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaradıb. Onun rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlayıb. 1995-ci il noyabrın 12-də Ulu Öndər Heydər Əliyevin müəllifliyi və ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilən Konstitusiya ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafına, xalqın sosial-rifah halının yaxşılaşmasına, demokratik proseslərin sürətlənməsinə təkan oldu. Ulu Öndərimiz Heydər Əliyev hələ Konstitusiya layihəsinin hazırlanması zamanı demişdir: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir konstitusiya qəbul etməliyik ki, o müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplə, əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır". Dahi Öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə insan hüquqlarının müdafiəsi sahəsində Dövlət Proqramı təsdiq olunur. Proqram insan hüquqları sahəsində milli qanunvericiliyin beynəlxalq hüquq öhdəliklərinə uyğunlaşdırılmasını nəzərdə tutur. Belə ki, bu məqsədlə proqram çərçivəsində qanunvericilik və institusional islahatlar həyata keçirilir. Bundan əlavə, ölkəmizin Avropa Şurasına üzvlüyü ərəfəsində qanunvericiliyin Avropa İnsan Hüquqları Konvensiyası ilə müqayisəli təhlili aparılır. Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin yürütdüyü iqtisadi, siyasi və hüquqi islahatların əsasında da məhz insan və vətəndaş hüquq və azadlıqlarının təmini məsələsi dayanır. Bununla bağlı ölkəmizin məhkəmə-hüquq sistemində əsaslı islahatlar aparılmış, bu sahədə fəaliyyətin təkmilləşdirilməsi, ədliyyə orqanlarının inkişafı, ədalət mühakiməsində qanunçuluğun artırılması, müstəqil məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üçün genişmiqyaslı tədbirlər görülmüşdür. Belə islahatların məntiqi davamı olaraq dövlət başçısının 28 dekabr 2006-cı il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.



Bu sənəd insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir. Ümummilli Lider Heydər Əliyevin strategiyasına sadiq olan Prezident İlham Əliyev ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq məqsədilə 2011-ci il dekabrın 27-də imzaladığı sərəncamla "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nı təsdiq etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. Əlamətdar tarixlə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili Elmira Süleymanovanın təşəbbüsü ilə ənənəvi olaraq mayın 18-dən iyunun 18-dək respublikamızda İnsan hüquqları aylığı keçirilir. Aylığın məqsədi insan hüquqları sahəsində ötən dövrdə əldə edilmiş nailiyyətləri, habelə mövcud problemlərin həlli yollarını müəyyənləşdirməkdir. Hər bir demokratik cəmiyyətdə insan hüquqlarının qorunması və demokratikləşmə bu sahədə fəaliyyət göstərən təsisatların quruculuğuna, aidiyyəti problemlərin həllinə və zorakılığın qarşısının alınmasına yönəlmiş davamlı bir proses kimi dərk edilir. İnsan hüquqlarının və azadlıqlarının qorunması istiqamətində bir çox qanunlar, o cümlədən "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya Qanunu, Seçki Məcəlləsi, "Sərbəst toplaşmaq azadlığı haqqında", "Siyasi partiyalar haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Dini etiqad azadlığı haqqında", "İnformasiya əldə etmək haqqında", "Məlumat azadlığı haqqında", "Gender bərabərliyinin təminatları haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" və digər qanunlar qəbul edilmişdir. Bu aktların mövcud beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə Azərbaycanın hakimiyyət orqanları beynəlxalq təşkilatlar, xüsusən, Avropa Şurasının Venesiya Komissiyası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu və digər nüfuzlu təşkilatlar ilə sıx əməkdaşlıq etmişlər. Göstərilən məcəllə və qanunlar yalnız həmin təşkilatların müsbət rəyi alındıqdan sonra parlamentin müzakirəsinə çıxarılmışdır. Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapan və Milli Məclis tərəfindən qəbul edilən qanunlar, eləcə də Prezidentin imzaladığı sərəncam və fərmanlar Azərbaycanda hüquq və azadlıqların tam təmin olunduğunu göstərir. Ümumilikdə 1995-ci ildən bu günə qədər Azərbaycanda 64 əfv sərəncamı imzalanıb. Məlumata görə, əfv sərəncamları ilə ümumilikdə 7542 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib.2017-ci ildə qəbul edilən Amnistiya aktı ilə 11 min nəfərə şamil olunub. Bu yaxınlarda Yenilməz Sərkərdə, ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə Ulu Öndərimiz Heydər Əliyevin 100 illiyi ilə əlaqədar daha yüzlərlə məhbus əfv edilərək azadlığa qovuşdu. Humanistlik və xeyirxahlıq Prezident İlham Əliyevin bu istiqamətdə düzgün və məqsədyönlü siyasət aparmasının müsbət bəhrəsidir.





Bir sözlə, birmənalı şəkildə onu demək olar ki, bu gün Azərbaycanda insan hüquq və azadlıqlarına, qanunların aliliyinə hörmət prinsipi prioritet istiqamət təşkil edir. Bunun da kökündə Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasət və bu siyasətin dönməzliyinin və davamlığının ölkə Prezidenti İlham Əliyev tərəfindən təmin etməsi dayanır. Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəi sahəsində qəbul edilən qanunlar, Prezident Fərman və Sərəncamları ölkəmizin hüquqi demokratik dövlət quruculuğuna sədaqətli olduğunu göstərir. Məhkəmə sisteminin mütərəqqi olmasına, təkmilləşməsinə, müstəqil fəaliyyət göstərməsinə təkan olan qanunvericilik bazasının yaradılması insan haqlarının müdafiəsinə mühüm töhfələr vermiş olur. Hakimlərin müstəqilliyi, siyasətsizləşdirilməsi, toxunulmazlığı və şəxsi təhlükəsizliyi təmin olunur. Prokurorluğun funksiyaları və statusu yeni demokratik şəraitə uyğunlaşdırıldığı hüquqi dövlət quruculuğu və insan hüquq və azadlıqlarının yeri və rolu beynəlxalq standartlara uyğun müəyyənləşdirilib, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunun qəbul edilib, "İnsan hüquq və azadlıqlarını təmin və polisin fəaliyyətini tənzim etmək məqsədilə hüquq-mühafizə orqanları sistemində mühüm yer tutan "Polis haqqında" qanun qəbul edilir. Qanuna görə polis ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması, habelə, yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi istiqamətlərində fəaliyyət göstərir və polisin səlahiyyətləri qanunda dəqiq müəyyən edilir. Polisin fəaliyyəti üzərində nəzarət mexanizmləri təsis edilir, polis əməkdaşlarının qanunsuz hərəkətlərindən və qərarlarından məhkəməyə müraciət etmək hüququ təsbit olunur". Ekspertlərin gəldiyi qənaətə görə, "İnsan haqları ilə bağlı Azərbaycan Respublikasının tərəfdar çıxdığı ən önəmli beynəlxalq Konvensiyalardan biri "İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında" Avropa Konvensiyasıdır"."İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası (Avropa İnsan Haqları Konvensiyası, 1950) Avropa Şurası üzvü olan ölkələr üçün əsas normativ-hüquqi aktlardan biridir.

Məhkəmə-hüquq islahatlarının tərkib hissəsi kimi ötən illər ərzində ölkəmiz insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirmiş, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir. Təbii ki, bu islahatlar və bu islahatların nəticəsi olaraq əldə olunan uğurlar bundan sonra da davam etdiriləcək. Çünki demokratik hüquqi dövlət quruculuğu sahəsində aparılan ardıcıl islahatlar bunu özündə ehtiva edir.

***İ.ƏLİYEV***

# Dəniz cəngavərlərinin dünəni, bu günü, sabahı



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb*



**Azərbaycan Hərbi Dəniz Qüvvələri 1919-cu ilin avqustunda ingilislər Azərbaycanı tərk etdikdən sonra formalaşmağa başladı. Həmin vaxta qədər Xəzər dənizinin qərb sahillərinin mühafizəsini ingilis hərbi gəmiləri təmin edirdi. Xəzər Dəniz Donanmasının gəmiləri Bakının azad edilməsi zamanı Port-Petrovska qaçırıldı və yalnız 1918-ci ilin noyabrında ingilislər Bakıya gəldikdən sonra geri qaytarıldı.**



## Hərbi Donanma müstəqil Azərbaycanın vacib öhdəliyi idi

Cümhuriyyət dönəmində dəniz donanması ilə hərbi nazirliyin donanma məsələləri ilə məşğul olan idarəsi olmadığı üçün Nəqliyyat Nazirliyi Xəzər Dəniz Donanması ilə məşğul olurdu. 1919-cu ilin sonunda Baş Qərargahda 6 nəfərdən ibarət xüsusi dəniz idarəsi yaradıldı. Ümumilikdə, Azərbaycan Xəzər Dəniz Qüvvələrinə 75, 100 və 120 millimetrlik topla təchiz edilmiş iki döyüş gəmisi - "Ərdahan" və "Qars", "Astrabad", "Göytəpə", "Araz", "Nargen" xidməti və yardımçı gəmiləri, nəqliyyat "Qartal" gəmisi, "Puşkin" hərbi paroxodu, eləcə də lazımı miqdarda kater vardı. Hərbi Dəniz Qüvvələri üçün kadrların hazırlanması məqsədilə Bakı Hərbi Dəniz Aviasiya Məktəbinin bazasında Xüsusi Dəniz Aviasiya Məktəbi, 1919-cu il oktyabrın 14-də isə Hərbi Dəniz Qüvvələrinin aviasiya bölməsi yaradıldı.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının Parlamenti 1991-ci il oktyabrın 9-da "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Qanun qəbul etdi və bununla da Silahlı Qüvvələrin tərkibində Hərbi Dəniz Qüvvələrinin yaradılmasının hüquqi əsasları müəyyən olundu. Keçmiş SSRİ-nin müstəqil respublikaları - Rusiya, Qazaxıstan, Türkmənistan və Azərbaycan arasında bağlanmış müqaviləyə əsasən, Xəzəryanı dövlətlər kimi Xəzər Dəniz Donanmasının onun ərazisində yerləşən bütün bazaları, habelə donanmanın hərbi gəmilərinin 25 faizi Azərbaycana keçdi.






## Müstəqilliyimizi yenidən bərpa etdikdən sonra...

1992-ci il iyulun 26-da müstəqil Azərbaycanın üçrəngli Dövlət bayrağı ilk dəfə olaraq "Bakılı" patrul gəmisində qaldırıldı və ölkə öz Hərbi Dəniz Qüvvələrini yaratmağa başladı. İlkin mərhələdə Hərbi Dəniz Qüvvələrinə müxtəlif növ gəmilərlə təchiz edilmiş beş diviziya və quru bölmələri daxil idi. Xəzər hövzəsində yerləşən müşahidə məntəqələrinin və mayakların fəaliyyəti zamanla bərpa olunmağa başladı.

"Azərbaycan Respublikasının Dəniz Bayraqları haqqında" 1997-ci il 4 noyabr tarixli Qanuna əsasən döyüş və yardımçı gəmilərdə qaldırılan bayraqlar haqqında Əsasnamə qəbul edildi. 2000-ci il avqustun 7-dən etibarən Hərbi Dəniz Qüvvələrinin bütün gəmilərində Hərbi Dəniz Qüvvələrinin bayrağı qaldırılır.

Türkiyə və Azərbaycan Hərbi Dəniz Qüvvələri arasında hərbi əməkdaşlıq haqqında saziş çərçivəsində Azərbaycana R-223 kiçik artilleriya kateri hədiyyə edilib. Səyahətinə 22 iyul 2000-ci ildə İzmir şəhərindən başlayaraq, üç dövlətin (Türkiyə, Ukrayna, Rusiya) ərazisini keçib, 5 dənizdən (Egey, Mərmərə, Qara, Azov, Xəzər), 3 boğazdan (Dardanel, İstanbul, Kerç), 2 çay (Don, Volqa) və onları birləşdirən 18 kanal cəmi 2345 dəniz mili qət edərək Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin zabitləri tərəfindən Hərbi Dəniz Qüvvələrinin əsas bazasına çatdırılıb.

## Dəniz pişiklərinin Vətən müharibəsindəki şücaətləri

HDQ-nin peşəkar heyəti hər iki Qarabağ müharibəsində inanılmaz qəhrəmanlıqlar göstəriblər. Hələ 1-ci Qarabağ müharibəsində Qarabağ uğrunda döyüşlərdə iştirak etmək üçün Hərbi Dəniz Qüvvələrinin dəniz və quru hissələrinin şəxsi heyətindən qısa müddətdə dəniz piyada alayı yaradıldı. Alay Ağdam-Tərtər istiqamətində düşmən hücumunun qarşısını almaq məqsədilə 1994-cü il aprelin 19-da cəbhəyə yola salındı və 1994-cü il iyulun 25-də döyüş tapşırığını uğurla başa vurdular.

O cümlədən, Vətən müharibəsində Hərbi Dəniz Qüvvələrinin dəniz pişikləri, sualtı hücum (SAH) və sualtı müdafiə (SAM) xüsusi təyinatlı dəstəsinin birinci xüsusi təyinatlı qrupu müharibənin ikinci günündə Goranboy rayonunda milli qəhrəman Mübariz İbrahimovun adını daşıyan "Mübariz postu" istiqamətində ilk döyüş tapşırığını itki vermədən uğurla yerinə yetirdi. Sonra isə hərbi dənizçilər Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı istiqamətlərində hücumu davam etdirərək bir çox yaşayış məntəqələrini, eləcə də düşmənin hərbi şəhərciyini və zastavasını azad edib, Xudafərinə bayraq sancaraq azad edilən əraziləri aidiyyəti üzrə digər qoşunların bölmələrinə təhvil veriblər.

Hərbi Dəniz Qüvvələri - xüsusi təyinatlılarının fədakarlığı nəticəsində Qubadlı rayonunun bir çox kəndi, eləcə də Qubadlı şəhəri işğaldan azad edilib. Hərbi dənizçilər Qubadlıdakı uğurlu əməliyyatlardan sonra Xocavənd rayonunun yaşayış məntəqələrinin, bir çox strateji yüksəkliklərinin azad edilməsində əsl qəhrəmanlıq, igidlik nümunələri göstəriblər. Düşmənin alınmaz qalaya çevirdiyi və neçə-neçə igidimizin şəhid olduğu Qızılqayanın alınması uğrunda döyüşlərdə də hərbi dənizçilərimiz xüsusilə fərqləniblər.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Sərəncamı ilə inşa olunan Hərbi Dəniz Qüvvələrinin yeni bazasında müasir tələblərə cavab verən qərargah, körpülər, hərbi qulluqçuların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün hərbi şəhərcik tikilib, kommunikasiya xətləri və digər infrastrukturlar çəkilib.

**Lalə Mehralı**

SƏS
8 avqust
2023-cü il

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!



# Şəhid ailələrinə daha bir güzəşt hüququ: yenilik nədən ibarətdir?

**Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı”nda dəyişiklik edilib. SİA xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.**

Qərara əsasən, artıq 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin övladlarına da əmək haqqından tutulan vergi hesablanarkən güzəşt hüququ müəyyənləşdiriləcək. İndiyə qədər sadəcə bu güzəşt hüququ onların valideynləri və arvadlarına (ərlərinə) şamil edilirdi.

Həmçinin, qərara əsasən, şəhid ailəsi statusu verilmiş şəxslərin valideynləri, dul arvadları (ərləri) və övladları Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin yerli qurumları tərəfindən verilən şəhid ailəsi statusunu təsdiq edən vəsiqə əsasında əmək haqqından tutulan vergi hesablanarkən güzəşt hüququ olacaq.

# "Qalatasaray"ın pley-offdakı potensial rəqibi açıqlandı



Futbol üzrə UEFA Çempionlar Liqasında (ÇL) pley-off mərhələsinin püşkü atılıb. SİA-nın məlumatına görə, Çempionlar Yolu və Liqa Yolunda bu raundun potensial cütləri müəyyənləşib.

Türkiyənin turnirdəki yeganə təmsilçisi ”Qalatasaray”ın potensial rəqibi ”Klaksvik” (Farer adaları) - ”Molde” (Norveç) cütünün qalibi olacaq. Azərbaycan millisinin futbolçusu Mahir Emrelinin formasını geyindiyi Xorvatiya ”Dinamo”sunun mümkün rəqibi isə Belçika ”Antverpen”idir.

# Bakıda bal yarmarkası keçiriləcək



Bakıda növbəti dəfə Arıçılıq Məhsullarının Sərgi-Satış Yarmarkasının təşkil edilməsinə hazırlıq görülür. SİA xəbər verir ki, yarmarkanın təşkilatçısı ötən il olduğu kimi bu il də Kənd Təsərrüfatı Nazirliyinə məxsus ”Aqrar Tədarük və Təchizat” ASC-dir.

Yarmarkanın sentyabr-oktyabr aylarında paytaxtın Nərimanov rayonunda, Fətəli xan Xoyskli küçəsi, 5 ünvanında keçirilməsi planlaşdırılır. Yarmarka 20 gün davam edəcək və burada 250 arıçı iştirak edəcək. Arıçılar piştaxta, oturacaq və ölçmə vasitələri, şəxsi gigiyenik vasitələr (tibbi maska, əlcək, antiseptik gel, bone) ilə təchiz olunacaq.

# 3 min manata ”Makarov” tapançası satmaq istəyən şəxs yaxalandı



Sabunçu Rayon Polis İdarəsinin 13-cü Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat tədbiri nəticəsində üzərində qanunsuz olaraq odlu silah saxlayan şəxs tutulub. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, nəticədə Bakı şəhər sakini, əvvəllər Cinayət Məcəlləsinin 228 və 234-cü maddələri ilə məhkum olunmuş, 1981-ci il təvəllüdlü Balakişiyev Adil Əşrəf oğlundan 1 ədəd ”Makarov” markalı tapança, 1 ədəd patron darağı və 4 ədəd patron aşkar edilərək götürülüb. A.Balakişiyev silah-sursatı bir müddət əvvəl əldə etdiyini və 3 000 manata satmaq istədiyini bildirib. Saxlanılan şəxslər barəsində 13-cü Polis Şöbəsində toplanan materiallar Sabunçu Rayon Polis İdarəsinə göndərilib, araşdırmalar davam etdirilir.

# İsti havalarla bağlı XƏBƏRDARLIQ

Həftənin sonunadək Abşeron yarımadasının isti hava dalğasının təsiri altında olacağı, havanın temperaturunun 37-40 dərəcəyə çatacağı, zəif küləklərin əsəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətinin rəisi Nazim Mahmudov SİA-ya bildirib ki, yüksək temperatur, durğun və rütubətli hava şəraitində bəzi saatlarda bürkü yarana bilər.

Şəhər mühitində gecə saatlarında da havanın temperaturu normadan yüksək olur. ”Bu cür hava şəraiti əksər əhali üçün əlverişsizdir. Belə günlərdə tez-tez maye qəbul etmək, günəş altında olarkən baş örtüklərindən və ya çətirlərdən istifadə etmək, açıq havada uzun müddət qalmamaq tövsiyə edilir. Özünüzü günvurma və istivurmadan qoruyun”, - o deyib.

Qeyd edək ki, havanın temperaturu iqlim normasından 4,6 dərəcə yüksəkdir.



Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000